RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 99 (8415) CÜMƏ AXŞAMI, 21 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## Cənab İlham Əliyev mütərəqqi siyasəti ilə qlobal böhranla mübarizəyə həm daxildə, həm də beynəlxalq səviyyədə böyük dəstək verir

**İlin əvvəlindən bəşəriyyət üçün dəhşətli kabusa çevrilən koronavirus pandemiyası hələ də can almaqda, iqtisadiyyata ağır zərbələr vurmaqdadır. Bu fakt isə onu deməyə əsas verir ki, bəzi dövlətləri postpandemiya dövründə çox ağır günlər gözləyir. Lakin ilkin dövrdən qlobal pandemiyanı ciddiyə alıb qabaqlayıcı tədbirlər görən, müxtəlif proqramlar hazırlayan ölkələrin bu böhrandan az itki ilə çıxmaq imkanına malik olduqlarını da söyləyə bilərik.**

Sevindiricidir ki, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan da bu dövlətlər sırasındadır. Çünki virusun miqyasının getdikcə böyüdüyü zamanda dövlət hər zamankı kimi insan amilini üstün tutaraq vətəndaşın sağlamlığını qorumaq üçün qabaqlayıcı tədbirlər gördü. Bunun müsbət nəticəsi isə göz önündədir.

### Pandemiya dövründə hazırlanan ən böyük sosial-iqtisadi paket

Prezident İlham Əliyev ölkədə elan edilən karantin dövründə əhalinin sosial-rifah halının çətinləşməməsi üçün müstəqillik tariximizin ən böyük sosial-iqtisadi paketini təqdim etdi. Bu proqramla dövlət işləməyən vətəndaşların əməkhaqqını ödədi, aztəminatlı ailələrə maliyyə yardımları göstərdi. Bununla yanaşı, Azərbaycan pandemiya ilə mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına və bəzi dövlətlərə yardım etdi.

Bir sözlə, Azərbaycan regional və qlobal miqyasda pandemiyaya qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verərək bir daha dünyaya nümayiş etdirdi ki, sözü ilə əməli vəhdət təşkil edən etibarlı tərəfdaşdır.

Mayın 19-da 3 saylı DOST mərkəzinin açılışında cənab İlham Əliyev pandemiya dövründə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələri, görülən işləri dəyərləndirdi. Gəlin, bir daha onlara nəzər yetirək:

*- 3,5 milyard manatlıq sosial-iqtisadi paket;*

*- Dövlət sektorunda işləyən 900 min insanın əməkhaqqı tam ödənildi;*

*- Özəl sektorda çalışan 700 min insanın maaşının əhəmiyyətli hissəsi ödənildi;*

*- 600 min insana 2 ay müddətində 190 manat maliyyə vəsaiti verildi;*

*- 80 min ailəyə hər ay 220 manatdan çox ünvanlı sosial yardım ödənilir;*

*- Sahibkarlara maliyyə yardımları və müxtəlif güzəştlər edildi;*

*- Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar yardım edildi;*

*- 13 dövlətə, 3 beynəlxalq təşkilata müxtəlif formada yardım göstərildi;*

*- Tibbi ləvazimat, maska və kombinezonları istehsal edən 2 zavod açıldı;*

*- Virusa yoluxan insanların müalicəsi üçün yeni xəstəxanalar açıldı;*

*- Ölkədə heç bir sosial layihə təxirə salınmadı.*

Ardı 4-cü səh.

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694) 14.8.3-cü maddəsində "ümumtəhsil" sözü "peşə təhsili və ümumi təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

## "Cənab Prezident, inanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan daha güclü və qüdrətli olacaq"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir.**

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Ağdam rayonundan məcburi köçkünlər **Aytəkin Əliyeva, Gültəkin Əliyeva, Gülyaz Əliyeva, Sevda Əliyeva, Aygün Qasımova və Aynurə Əliyeva** yazırlar: "Hörmətli Prezidentimiz, dünyada pandemiyanın tüğyan etdiyi bir dövrdə verdiyiniz doğru qərarlar ölkəmizi COVID-19 virusunun ağır fəsadlarından qorumaqdadır. Bu çətin dövrdə Siz hər bir azərbaycanlının Prezidenti olduğunuzu işinizlə bir daha sübut etdiniz. Tez bir zamanda ölkəmizə lazımi tibbi avadanlıqların gətirilməsi, yeni xəstəxanaların fəaliyyətə başlaması, modul tipli xəstəxananın vaxtında tikilib başa çatdırılması qərarlarınızın dinamikliyinin nəticəsidir. Əminik ki, uzaqgörənliyinizin və dərin zəkanızın sayəsində xalqımız bu bəladan az itkilərlə sovuşacaq. Qətiyyətli addımlarınızın nəticəsi olaraq artıq ölkəmizdə yeni idarəetmə modeli formalaşır. Korrupsiya və rüşvətxorluğa qarşı tutduğunuz ciddi mübarizə siyasəti öz töhfəsini verməkdədir. Gördüyünüz bütün tədbirlər vətəndaş məmnunluğunun artırılmasına hesablanıb. Bunlar xalq-Prezident həmrəyliyini gücləndirir, Sizə olan inamı daha da artırır.

Cənab Prezident, bu çətin günlərdə xalqımıza göstərdiyiniz böyük dəstəyə və vətəndaşların sağlamlığını üstün tutduğunuza görə Sizə bütün təhsil işçiləri və məcburi köçkünlər adından təşəkkürümüzü bildiririk".

Masallı rayonunun sakini **İsgəndər Məmmədəliyev:** "Möhtərəm Prezidentimiz, bu gün bütün dünyanı bürüyən koronavirus pandemiyasına qarşı ölkəmizdə də ciddi mübarizə aparılır. Epidemiya ilə əlaqədar olaraq iş yerlərinin müvəqqəti bağlanmasına görə insanlara dövlət tərəfindən maddi köməyin edilməsi, aztəminatlı ailələrin övladlarının təhsil haqqının dövlət tərəfindən ödənilməsi, eyni zamanda, işsiz insanlara iki ay müddətinə birdəfəlik ödənişin edilməsi, tibb işçilərinin əməkhaqlarının 3-5 dəfə artırılması, haqqı ödənilən sosial iş yerlərinin açılması Sizin xalqımıza olan sevginizin daha bir göstəricisidir. Bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirəm. Allah Sizi qorusun!"

Ardı 2-ci səh.



## Azərbaycan yenə birinci oldu

### Bu dəfə Enerji Keçidi İndeksi üzrə

**Dünya İqtisadi Forumunun Enerji Keçidi İndeksi (ETI) üzrə dərc etdiyi yeni hesabatda indeks cədvəlinin 44-cü pilləsində qərarlaşan Azərbaycan MDB məkanında ən yüksək nəticəyə nail olmuşdur. Ötən hesabatla müqayisədə ölkəmizin mövqeyi 13 pillə yaxşılaşmış, 2015-ci illə müqayisədə isə ümumilikdə 2 faizlik artım əldə edilmişdir.**

Bu barədə yayılan məlumatda qeyd edilir ki, ölkəmizin ETI indeksi üzrə ümumi göstəricisi 58,1 faizdir və bu, 2020-ci il üzrə qlobal ETI göstəricisindən (55,1 faiz) yüksəkdir. Beləliklə, Azərbaycan MDB məkanInda irəli çıxmaqla həm də Qətər, Misir, İordaniya, Səudiyyə Ərəbistanı, Tunis, Küveyt, İran, Birləşmiş Ərəb Əmirlikləri və Venesuela kimi zəngin enerji resurslarına malik ölkələri geridə qoymuşdur.

Ardı 7-ci səh.

## İctimai-siyasi sabitlik inkişafımızın əsasıdır

**Azərbaycanın sosial-iqtisadi inkişafını, insanların rifah halının yaxşılaşmasını, hüquq və azadlıqlarının daha dolğun ödənilməsini, beynəlxalq aləmdə qazanılan uğurlarını ölkəmizdəki sosial mühit və ictimai-siyasi sabitliklə əlaqələndirənlər qənaətlərində haqlıdırlar. Çünki birlik, həmrəylik, sabitlik qazanılan nailiyyətlərin əsası olmaqla, həm də gələcək fəaliyyətin səmərəliliyi, ahəngdarlığı üçün zəmanətdir.**

Dövlət başçısı cənab İlham Əliyev də çıxışlarında bu amilləri daim diqqətə çatdırmaqla gücümüzü, qüdrətimizi, uğurlarımızı birliyimizdə görür və hər yerdə, hər zaman qayda-qanunları gözləməyi, nizam-intizamlı olmağı, sabitliyi qorumağı tövsiyə edir.

Sabitlik tək bizim üçün yox, bəşəriyyət üçün dəyərlidir.

Sabitlik vətən, xalq, dövlət üçün vacibdir.

Sabitlik cəmiyyətin səmərəli idarə olunması üçün əhəmiyyətlidir.

Sabitlik hər bir insanın həyatı, yaşayışı, xoşbəxtliyi, fəaliyyəti üçün gərəklidir.

İkinci dəfə müstəqillik əldə etdiyimiz 1990-cı illərin əvvəlinin acı təcrübəsi bunu deməyə əsas verir. İtirilən torpaqlarımız, əsir qalan yurdlarımız, düşmən tərəfindən dağılan, viran qalan kəndlərimiz, şəhərlərimiz erməni faşistlərinin vəhşi əməllərinin nəticəsi olmaqla bərabər, həm də daxili çəkişmələrin, özbaşınalıqların qurbanıdır. Bir milyondan artıq qaçqın və köçkünün acı taleyi, məşəqqətli həyatı buna sübutdur. Sözsüz ki, o illərdə ölkədə baş verən qarşıdurmaların, hərc-mərcliyin, məsuliyyətsizliyin qarşısı vaxtında alınsaydı, vəzifə sahibləri qətiyyət, iradə nümayiş etdirib uzaqgörən olsaydılar, təsirli tədbirlər həyata keçirilsəydi, birləşə bilsəydik dəhşətli fəlakətlərə yol verilməz, ölkə vətəndaş müharibəsi səviyyəsinə çatdırılmazdı.

Çox təəssüflər olsun ki, o vaxtlar iqtidar kürsüsündə oturub bu gün müxalifətdə olanların çoxları başımıza gətirilən bəlaları səhv və çox yanlış olaraq sırf Sovetlər İttifaqının dağılması, dünyada baş verən hadisələrlə əlaqələndirir, özlərinə bəraət qazandırmaq istəyirlər. Əlbəttə, yanaşma düzgün deyil, fikirlər məntiqsizdir. Həmin illər siyasətdə, idarəetmədə, ölkənin müdafiəsində, vətəndaşların təhlükəsizliyinin, hüquq və azadlıqlarının təmin edilməsində, ictimai-siyasi sabitliyin qorunmasında buraxılan çox ciddi səhvlər bunu sübut edir.

Fikir verin: Xocalı kimi bir şəhər uzun zaman mühasirədə köməksiz qalır, ancaq buna fikir verilmir, tədbir görülmür.

Qaradağlı faciəsi törədilir, kəndlərimiz bir-birinin ardınca işğal olunur, ancaq hadisələrə seyrçi mövqedən yanaşılır, qüvvələr səfərbər edilmir, sonrakı günlərdə baş verə biləcək dəhşətli olaylar barədə düşünülmür.

Gəncə hadisələri baş verir, ölkəyə rəhbərlik edənlərin bu barədə ətraflı məlumatı olmur, hakimiyyətdə olanlar günahı bir-birilərinin üzərinə atmaqla qarşılıqlı ittihamlarla, təhqirlərlə vəzifələrini bitmiş hesab edirlər.

Ardı 4-cü səh.



## Bu il qazaxlı kümçülər 6 ton yaş barama istehsal etməyi nəzərdə tutmuşlar

**Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq son illər respublikamızda kənd təsərrüfatının ənənəvi və ixracyönümlü sahələrindən olan baramaçılığın inkişafı istiqamətində mühüm işlər həyata keçirilir.**

Xüsusilə dövlət başçısının "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 27 noyabr 2017-ci il tarixli Sərəncamından sonra baramaçılığın inkişaf etdirilməsi istiqamətində yeni imkanlar açıldı.

Ardı 7-ci səh.

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə gücluyük!*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# “Cənab Prezident, inanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan daha güclü və qüdrətli olacaq”



*Əvvəli 1-ci səh.*

Daşkəsən şəhərindən **Sərvinaz Qurbanova:** “Hörmətli cənab Prezident və hörmətli Mehriban xanım, əvvəlcə onu bildirim ki, oğlum Əli Polis Akademiyasında təhsil alır. Ailəmiz buna çox sevinir. Həyat yoldaşım da həm hərbçi kimi xidmət edərkən, həm də polis işləyərkən torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edərək öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirib. Hazırda təqaüdçüdür. Müstəqil Azərbaycanda övladlarımızın sülh və əmin-amanlıq şəraitində yaşayıb təhsil almasına görə hər birimiz, ilk növbədə, Ulu Öndərimiz Heydər Əliyevə borcluyuq. Oğlumun oxuduğu təhsil müəssisəsi haqqında sevinclə, ağızdolusu danışa bilərəm. Sizin təhsil sahəsinə ayırdığınız diqqətin, tələbkarlığın nəticəsini biz vətəndaşlar görürük. Sizə ailəmiz adından səmimi təşəkkür edirəm. Sizin yürütdüyünüz siyasəti bəyənir və dəstəkləyirik.

Hörmətli cənab Prezident və hörmətli Mehriban xanım, Azərbaycan Respublikasının inkişafına, nüfuzunun artmasına, vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılmasında göstərdiyiniz əməyə və yürütdüyünüz siyasi xəttə görə əminliklə deyirik ki, xalqımızın taleyi, gələcəyi etibarlı əllərdədir. Əminik ki, vaxt gələcək, işğal olunmuş torpaqlarımız da azad ediləcək, insanlarımız daha yaxşı yaşayacaq. Dünyanı bürüyən koronavirus pandemiyasının yayıldığı bir vaxtda Sizin vətəndaşlara göstərdiyiniz qayğı və maddi yardımlar bir daha göstərir ki, dövlətimiz uğurla idarə olunur. Xeyirxah işlərinizi söyləməklə qurtarmaz. İşsizliyin minimuma endirilməsinə, qocalara qayğıya, kimsəsizlərə köməyə görə Sizə minnətdarıq. Bütün bu işlərə, yürütdüyünüz sülhsevər və uğurlu siyasətə görə təşəkkür edirik”.

Tərtər rayonundan **Sadiq Quliyev:** “Möhtərəm cənab Prezident, Sizi bütün tərtərlilər adından salamlayıram. Bütün dünyanın qarşısında aciz qaldığı pandemiyaya qarşı mübarizədə Sizin xalqla birlikdə “Biz birlikdə güclüyük!” şüarı altında həmrəy olaraq atdığınız qətiyyətli və humanist addımlar həm xalqın Sizə olan inamını və sevgisini daha da artırdı, həm də Sizin rəhbərliyinizlə Azərbaycan dünya dövlətlərinə nümunə olaraq rəğbət qazandı. Bu gün Tərtərdə imkansız ailələrə əl tutmaq, yardım etmək bir hərəkata çevrilib. Buna görə də mən bütün tərtərlilərin Sizə minnətdarlığını çatdırmağı özümə borc bildim. Tanrı Sizi, ailənizi, Azərbaycan xalqını və dövlətini qorusun!”

Şəki şəhərindən **Ruhəngiz Məmmədova, Eldəniz Aslanov, Gülmirə Aslanova, Xəyalə Qurbanova** və **Məmməd Qasımov** yazırlar: “Hörmətli cənab Prezident, vətəndaşların sağlamlığını düşünərək koronavirusla mübarizə sahəsində ilkin qabaqlayıcı tədbirlər görən ölkələrdən biri də Azərbaycandır. Sizin təşəbbüsünüz və rəhbərliyinizlə operativ olaraq həyata keçirilən qabaqlayıcı tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunub saxlanılması üçün misilsiz əhəmiyyətə malikdir. Buna görə xalqımız Sizə minnətdardır. Karantin dövründə sadə insanların yanında olduğunuza, əhaliyə edilən yardımlara, ödənilən müavinətlərə və bir sıra güzəştlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Allah Sizi və Azərbaycanımızı qorusun!”

Cəlilabad rayonunun sakini **Əli Məmmədovun** məktubunda deyilir: “Hörmətli cənab Prezident, bu çətin dövrdə Azərbaycan xalqının, dövlətinin etibarlı müdafiəsi, sağlamlığının qorunması, aztəminatlı ailələrin ehtiyacının ödənilməsi bütün dünya azərbaycanlılarının sevincinə səbəb olub. Bunu Sizə ünvanlanan çoxsaylı təşəkkür məktublarından da görmək olar. Mən də ailəmin adından Sizə təşəkkür etməyi özümə borc bilirəm. Uca Allah Sizə, Mehriban xanıma və ailənizə daim kömək olsun! Azərbaycan xalqının bütün vətənpərvər nümayəndələri hər zaman Sizin yanınızdadır”.

Şirvan şəhərindən **Züleyxa Qayıbova** yazır: “Hörmətli cənab Prezident, ölkəmizə də təsir edən koronavirus pandemiyasının yaratdığı bu çətin günlərdə hamı kimi mənim də ürəyimdə nigaranlıq duyğuları var idi, təlaşımızda haqlı idik. Dünyanın bir çox inkişaf etmiş böyük dövlətlərinin belə qarşısında aciz vəziyyətə düşdükləri pandemiya hamımızdan çox Sizi narahat edirdi. Hər zamankı məsuliyyətiniz bu günlərdə də öz sözünü dedi. Əsl rəhbər, əsl dövlət xadimi, əsl vətəndaş mövqeyi sərgiləyərək xalqımızı, dövlətimizi bu bəladan uzaq tutmağınız Sizin şəxsinizə, insani keyfiyyətlərinizə olan sevgini daha da artırdı. Biz ahılların Sizə ünvanlanan duaları, alqışları Sizi daha da qüvvətləndirdi. Karantin elan olunan ilk gündən aztəminatlı ailələrə olunan yardımlar, dövlət işlərində çalışanların məvaciblərinin əvvəlki kimi ödənilməsi, işsiz kimi dövlət qeydiyyatından keçmiş vətəndaşlarımıza edilən yardımlar sosial və hüquqi dövlət kimi qüdrətimizi bütün dünyaya göstərmiş oldu.

Əziz Prezidentimiz, Siz ölkəmizi təhdid edən bütün problemlərin öhdəsindən qətiyyətlə gəlmək bacarığınızı bir daha təsdiq edərək bütün dünyaya örnək bir lider olduğunuzu sübut etdiniz. Sizinlə fəxr etdik, qürurlandıq, ruhlandıq, birləşdik. Allah Sizdən razı olsun, əziz Prezidentimiz! Nə yaxşı ki, varsınız!”

Bakı şəhərinin sakini **Sevil Qurbanova:** “Möhtərəm cənab Prezident, məktubuma Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəldiyi vaxtlarda atamın dediyi sözlərlə başlamaq istəyirəm: “Heydər Əliyev bizi bu bəladan qurtaracaq”. Azərbaycanın çətin vaxtında atamın əminliklə dediyi bu sözləri o zaman uşaq olduğuma görə tam dərk etmirdim, amma zamanla Ulu Öndər Heydər Əliyevin qüdrətli siyasəti nəticəsində Azərbaycanımızın bəlalardan qurtulub gündən-günə çiçəkləndiyinin şahidi oldum. Son zamanlar bütün dünyanı bürümüş pandemiya ölkəmizdən də yan keçməyəndə Sizin ilk çıxışınız zamanı atam: “Prezidentimiz İlham Əliyev bizi bu bəladan qurtaracaq. Atasının oğludur”, - deyəndə bu dəfə əmin idim ki, Sizin rəhbərliyinizlə bu bəladan üzüağ çıxacağıq. Dünyanın nəhəng dövlətlərinin COVID-19 qarşısında aciz qaldığı bir zamanda Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan bu gün ən az itki verən ölkələr sırasındadır. Pandemiyanın üzə çıxdığı ilk gündən etibarən Azərbaycan xalqına diqqət və qayğınızı əsirgəmədiniz. Sizin qabaqlayıcı tədbirlər barədə verdiyiniz bütün qərarlar xalqımızın rifahı və sağlamlığı məqsədi daşıyırdı. Siz bu çətin zamanda bir daha sübut etdiniz ki, Ümummilli Liderimiz Heydər Əliyevin layiqli davamçısısınız. Bir daha əmin olduq ki, ölkəmiz Sizinlə daim gözəl günlər yaşayacaq.

Cənab Prezidentimiz, ölkəmizin inkişafı, xalqımızın rifahı və sağlam gələcəyi üçün göstərdiyiniz diqqət və qayğıya görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürümü bildirirəm. Biz Sizinlə güclüyük!”

Gəncə şəhərindən **Rza Ələsgərov:** “Hörmətli cənab Prezident, dünyanı bürümüş koronavirus pandemiyasından xalqımızın qorunması üçün vaxtında, tam dəqiq verdiyiniz qərarlar və göstərişlər nəticəsində Azərbaycan xalqının bu xəstəlikdən qorunmasına nail olunub. Dünya ölkələrindəki vəziyyətə baxdıqda Azərbaycan xalqı üçün verdiyiniz göstərişlər və görülən işlər olmasaydı, ölkəmiz üçün vəziyyət heç də ürəkaçan olmayacaqdı. Bütün bunlardan açıq görünür ki, Sizin başlıca məqsədiniz xalqımızın bu xəstəlikdən minimum itki ilə çıxmasıdır. Bir çox ölkələrin iqtisadiyyatı fikirləşərək qərarları gecikdirməsi hazırda pandemiyanın ağuşunda olmalarına gətirib çıxarıb. Hazırkı vəziyyətdə aydın görünür ki, Azərbaycan xalqı üçün verdiyiniz qərarlar nə dərəcədə doğrudur. Bu qərarlar nəticəsində koronavirus pandemiyasının ölkədə yayılması minimuma endirilib, səhiyyə bu xəstəliklə mübarizəyə tam hazırlanıb. Verdiyiniz qərarlar digər ölkələrə nümunə olub.

Cənab Prezident, belə bir vəziyyətdə hər zamankı kimi xalqın yanında olduğunuz üçün Sizə və Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirir, təşəkkür edirəm. Biz bir daha əmin olduq ki, ən çətin günlərdə güvənə biləcəyimiz Prezidentimiz var”.

Xaçmaz rayonunun sakinləri **Şakir Məmmədov, Aytən Adilova, Svetlana Eldarova** və **Həmid Eldarov** yazırlar: “Möhtərəm cənab Prezident, “Xanoba” gömrük postunun tikintisi, həmin postla “Samur” sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolunun genişləndirilməsi ilə bağlı sərəncamlarınız xaçmazlılara verdiyiniz ən yüksək qiymət və ölkəmizdə aparılan iqtisadi islahatların məntiqi davamıdır. Bu istiqamətdə ayırdığınız maliyyə vəsaiti sərhəd zonasında yaşayan əhalinin rahat şəkildə sərhədkeçid məntəqəsindən istifadə etməsinə, yolda isə maneəsiz hərəkətinə dəstək olacaq. Siz Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətini əzmlə, böyük iradə ilə davam etdirərək müstəqil Azərbaycanı daha da gücləndirirsiniz. Bu yolda Sizə möhkəm cansağlığı, uğurlar arzulayırıq”.

Kürdəmir rayonundan **Ayşad Qarayeva, Elmar Əsədov, Tahirə Məmmədova** və **Dürdanə Şirinova** yazırlar: “Möhtərəm cənab Prezident, biz Sizinlə, sözün əsl mənasında, fəxr edirik. Bu gün biz məhz Sizin uzaqgörən siyasətinizin nəticəsində sağlamıq, sevdiklərimizin əhatəsindəyik. Bu çətin günlərdə istər karantində olan, istərsə də evdə qalan vətəndaşlarımız xüsusi diqqət və qayğı ilə əhatə olunublar. Həmin diqqət və qayğı xeyirxah, nəcib işlər görən, xalqın xeyri üçün əlindən gələni, hətta ondan da artığını edən, ən əsası isə Ulu Öndər Heydər Əliyev yolunun uğurlu davamçısı olan bir liderin sayəsində mümkün oldu. Sizin Prezidenti olduğunuz bir ölkədə yaşamağımızla qürur duyuruq. Yaşasın müstəqil Azərbaycanın Prezidenti və onun ətrafına sıx birləşən Azərbaycan xalqı!”

Şəmkir rayonundan **Könül Məmmədova, Günay İsayeva, Xatın Hüseynova** və **Vüsalə Yolçuyeva** yazırlar: “Möhtərəm cənab Prezident, biz Sizə Şəmkir rayonunun müəllim, tələbə və şagirdləri adından müraciət edərək təşəkkür etmək istəyirik. Sizin sayənizdə xalqımız koronavirus xəstəliyindən az zərərlə qurtulacaq. Siz şagirdləri, tələbələri xəstəlikdən qorudunuz, lakin heç kim təhsildən kənarda qalmadı. Sizin vətəndaşlara, xalqımıza nə qədər dəyər verdiyinizi hamı gördü. Azərbaycan xalqının sağlamlığı üçün atdığınız addımlar Sizin xalqa sevginizi bir daha nümayiş etdirdi.

Cənab Prezident, Allah Sizi daim qorusun! Çox sağ olun”.

Ağdam rayonundan **Əli Rzayev, Qəmər Səfərova** və **Rəfail Zeynalov** dövlət başçısına minnətdarlıqlarını bu sözlərlə bildirirlər: “Möhtərəm cənab Prezident, son aylarda dünyanı bürüyən qorxulu koronavirus xəstəliyinə qarşı mübarizəniz, gecə-gündüz öz xalqınızı qorumağınız bizə yaxşı məlumdur. Bu zəhmətinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bu gərgin zəhmətin arxasında xalqın iqtidara olan inamı, sevgisi, etibarı dayanır.

Cənab Prezident, bu çətin günlərdə biz xüsusi qayğı hiss edirik. Aldığımız yardımlar həm də mənəvi dəstək idi. Biz ağdamlılar həmişə Sizin yanınızdayıq. Sizin səmərəli fəaliyyətinizlə bizi qarşıda daha gözəl günlər və Qarabağa qayıdış gözləyir. Allahdan Sizə güc və sağlamlıq arzulayırıq”.

Bakı şəhərinin sakini **İlham Tağıyev:** “Möhtərəm cənab Prezident, mən bir neftçi kimi Sizə minnətdarlığımı bildirmək istəyirəm. Dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizə təsirini azaltmaq məqsədilə həyata keçirdiyiniz tədbirlər təqdirəlayiqdir. Çünki bu mübarizədə tibbin ən inkişaf etdiyi ölkələr belə aciz qalıb. Çox sevindirici haldır ki, Azərbaycanda məhz Sizin uzaqgörən siyasətiniz, qabaqlayıcı tədbirləriniz sayəsində bu virusun genişlənməsinin qarşısı alındı. Azərbaycanın koronavirus pandemiyasından ən az zərər çəkən ölkələr arasında ilk yerlərdə olması məhz Sizin qabaqlayıcı tədbirləriniz sayəsindədir.

Cənab Prezident, “Biz birlikdə güclüyük!” çağırışınızla xalqımızın malik olduğu ən ülvi dəyərləri səfərbər etdiniz. Həmçinin ölkədə əhalinin bütün təbəqələrini diqqətdə saxlamağınız Sizə olan inam və etibarı ikiqat artırdı. Azərbaycanlılar Sizinlə və Mehriban xanımla qürur duyur, fəxr edir. Bizi, Azərbaycan xalqını bu cür diqqət və qayğı ilə əhatə etdiyiniz üçün ailəmin adından Sizə dərin təşəkkürümü bildirirəm.

Möhtərəm cənab Prezident, güclü dövlətçiliyimiz, yüksək rifahımız naminə Sizə və əzizlərinizə, xalqımıza möhkəm cansağlığı diləyirəm. Allah Sizi və Azərbaycan xalqını qorusun!”

Bakı şəhərinin Xətai rayonunun sakinləri **Firdovsi Həsənov, Gülşən Ağayeva, Səməd Cabbarov, Rahilə Mahmudova** və **Abil Əliyev** yazırlar: “Hörmətli cənab Prezident, Sizin koronavirusla bağlı qabaqlayıcı tədbirləriniz çoxsaylı insan tələfatının qarşısını aldı. Bu işinizə görə bu gün Azərbaycan bir çox ölkələrə örnək göstərilir. Siz insanların sağlamlığını iqtisadi fəallıqdan, maddi gəlirlərdən üstün tutdunuz. Biz çox xoşbəxtik ki, Sizin rəhbərlik etdiyiniz ölkədə yaşayırıq. Çox fərəhləndirici haldır ki, xalqın malına göz tikən, vəzifəsindən sui-istifadə edən rüşvətxor məmurlara qarşı mübarizəni də uğurla davam etdirirsiniz. Son günlərdə bir neçə vəzifəli şəxsin məsuliyyətə cəlb olunması cəmiyyətdə böyük rəğbətlə qarşılanıb.

Əziz Prezidentimiz, biz vətəndaşlar əminik ki, dünyaya Günəş kimi doğan Azərbaycanın qarşısını kəsməyə, şəfəqini azaltmağa çalışan qara buludlar tezliklə dağılacaq, ölkəmiz hər zaman açıq səmada parlamaqda davam edəcək. Sizə dərin təşəkkürümüzü bildirir, işlərinizdə yeni-yeni uğurlar, sağlam və uzun ömür arzulayırıq”.

Bərdə rayonunun Samux kəndindən **Seymur Məmmədov:** “Hörmətli cənab Prezident, Sizin tapşırığınıza əsasən respublikamızın bütün regionlarında müasir avtomobil yollarının, körpülərin, keçidlərin yüksək keyfiyyətlə tikilməsinin şahidi oluruq. Tapşırığınıza əsasən Bərdə rayonunun Samux kəndində də uzunluğu 4 kilometr olan yeni yol tikilib. Bu yolun tikintisi kənd sakinlərinin hədsiz sevincinə səbəb oldu. Görülən işlərə görə kəndimizin camaatı adından Sizə dərin minnətdarlığımızı bildiririk. Samux kəndinin sakinləri adından Sizə bitməztükənməz yollar qədər uzun ömür, cansağlığı və ailə səadəti arzulayırıq. Çox sağ olun, cənab Prezident”.

Ucar rayonundan **Aysu Ramazanova** və **Saleh Qardaşov** yazırlar: “Möhtərəm cənab Prezident, koronavirus pandemiyası dövründə bizə arxa-dayaq olduğunuza, hər birimizə xüsusi diqqət yetirdiyinizə, hər kəsin problemini həll etməyə çalışdığınıza görə Sizə minnətdarıq. Siz Azərbaycan xalqının sağlamlığını, təhlükəsizliyini, rifahını hər şeydən üstün tutur və buna nail olmaq üçün əlinizdən gələni əsirgəmirsiniz. Biz də Sizə inanır, güvənir və Sizinlə fəxr edirik. Allah Sizi və xalqımızı qorusun!”

Füzuli rayonundan **Hörmət Səfərov, Eynulla Cəfərov, Miralı Nəsirov, Hüseyn Əliyev, Əsəd Kazımov, Rahib Mehdizadə** və **Mədəd Məmmədov** yazırlar: “Hörmətli cənab Prezident, Sizin geniş dünyagörüşünüzə, sağlam düşüncənizə, böyük siyasi təcrübənizə, dərin təfəkkürünüzə əsaslanan qərarlarınız xalqımızın sağlamlığının qorunmasına, təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Bu istiqamətdə atdığınız addımlar, gördüyünüz qabaqlayıcı və təxirəsalınmaz tədbirlər artıq öz nəticəsini verməkdədir. Ümumbəşəri bəla olan koronavirus pandemiyası ilə mübarizədə dünyanın inkişaf etmiş dövlətlərinin belə aciz qaldığı vəziyyətdən minimum ziyanlarla çıxmağımız, son dövrlərdə ölkəmizdə zəruri tibbi vasitələr, avadanlıq və ləvazimatlar ilə təminatın yaxşılaşdırılması, müasir tələblərə cavab verən yeni səhiyyə ocaqlarının istifadəyə verilməsi, xaricdə çalışan həkimlərimizin, tibb üzrə alimlərin ölkəmizdə gedən proseslərə cəlb edilmələri, xalqın rifahı naminə göstərdiyiniz diqqət və qayğı ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Tanrı xalqımızın daha sağlam və firavan sabahı naminə daim Sizi və ailənizi qorusun!”

Masallı rayonunun Bədəlan kəndindən **Firdovsi Cəbrayılov:** “Möhtərəm cənab Prezident, bu gün bəşəriyyət ağır sınaq qarşısındadır. Dünyanı təhdid edən pandemiyanın Azərbaycanda yayılmasının qarşısını almaq üçün ilk gündən lazımi sosial və iqtisadi tədbirlər görüldü. Sizin apardığınız uğurlu siyasət nəticəsində xalqımızın rifahı yaxşılaşıb, sosial sahədə böyük nailiyyətlər əldə olunub. Bütün dünyanı çənginə alan koronavirus bəlasından xalqımızı qorumaq üçün vaxtında verdiyiniz qərarlar və tapşırıqlar bir Azərbaycan vətəndaşı kimi bizi çox sevindirdi. Çox sevindirici haldır ki, iqtisadi gücü ilə öyünən bir çox dövlətlər belə ölkəmizin bu pandemiyaya qarşı apardığı mübarizə üsulundan faydalanırlar. İnanıram ki, Sizin hərtərəfli düşünülmüş siyasətiniz nəticəsində ölkəmiz postpandemiya dövründə öz iqtisadi gücünü sürətlə bərpa edəcək. Son günlər kəndimizin sakinlərinin maddi rifahının təmin olunması üçün Heydər Əliyev Fondu tərəfindən göndərilən yardımlar kənd camaatı tərəfindən böyük sevinclə qarşılandı. Buna görə kənd sakinləri adından Sizə, Mehriban xanım Əliyevaya və Heydər Əliyev Fonduna təşəkkürümüzü bildiririk.

Cənab Prezident, hər zaman olduğu kimi, bu ağır günlərdə də xalqın yanında olaraq hər bir vətəndaşın sağlamlığı, təhlükəsizliyi və sosial rifahı naminə atdığınız bütün addımları yüksək qiymətləndirir, bizi qoruduğunuz üçün Sizə minnətdarlığımızı bildiririk. Vətənimizin daha xoşbəxt sabahı üçün həyata keçirdiyiniz tədbirləri görür, alqışlayır və Sizin ətrafınızda sıx birləşmişik. Sizə işlərinizdə uğurlar arzulayıram. Allah Sizi qorusun!”

Bakının Xəzər rayonunun Qala qəsəbəsindən **Qorxmaz Ağayev:** “Möhtərəm cənab Prezident, koronavirus pandemiyası səbəbindən dünyanın əksər ölkələri hazırda çətin günlər yaşayır. Təbii ki, pandemiya Azərbaycana da təsirini göstərdi. Dünya bazarlarında neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, Azərbaycan vətəndaşı heç bir çətinlik hiss etmədi. Bunlar Sizin mükəmməl siyasi və iqtisadi siyasətinizin uğurlarıdır. İşsiz kimi qeydiyyatda olan şəxslərə pandemiya dövründə aylıq 190 manat vəsaitin verilməsinə görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycan vətəndaşı əmindir ki, bütün vəziyyətlərdə dövləti onun arxasındadır. Sizə bir daha minnətdarlığımı bildirir, yürütdüyünüz siyasətin uğurlarının daha bol olmasını arzu edirəm. İnanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan daha güclü və qüdrətli olacaq”.

# Veteranlar da dövlət başçısı ilə birlikdədir

**Bakı şəhəri Yasamal rayonu veteranları da ölkə əhalisi kimi, hər zaman Azərbaycan Prezidentinin yanında olduğunu təsdiqləyib. Bu gün də belədir.**

Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə ölkəmizdə koronavirus (COVID-19) pandemiyasından qorunmaq məqsədilə təcili tədbirlər görüldü. Şükürlər olsun ki, nəticəsi də müsbətdir. Dünya ictimaiyyəti də bunu təsdiqləyir ki, Azərbaycan Prezidenti öz vətəndaşlarını bu bəladan xilas etmək üçün bütün imkanlardan istifadə edir.

Bu günlərə kimi yaşı 65-dən yuxarı olan şəxslərin evdən çıxmasına qadağa qoyulmuş, vətəndaşlar “Evdə qal” kampaniyasına qoşulmağa çağırılmışdı. Bu çağırış, əlbəttə, insanların, o cümlədən biz veteranların da sağlamlığı naminə dövlətimizin başçısı tərəfindən atılan ən mühüm addımlardan və qabaqlayıcı tədbirlərdən biri kimi olduqca vacib idi.

Cənab Prezidentə nə qədər təşəkkür etsək, dərin minnətdarlığımızı bildirsək də, azdır. Çünki hər zaman Azərbaycan xalqının yanındadır və daim ölkə vətəndaşlarının sosial rifahının yüksəlməsinə xidmət edən siyasət həyata keçirir. Vətəndaşların sağlamlığı Prezidentimiz üçün hər şeydən önəmlidir. Bir-iki faktla fikrimi əsaslandırmağa çalışacağam. Prezidentin Ehtiyat Fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ayrılan vəsait, yeni modul tipli xəstəxananın, Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışı, həmçinin bu çətin günlərdə Bakı-Sumqayıt yolunun genişləndirilməsi çərçivəsində görülən digər işlər, televiziyada izlədiyimiz çıxışlar, açılışlarında şəxsən özünün iştirak etdiyi səhiyyə ocaqları, bu və digər tədbirlərin həyata keçirilməsi bir daha sübut edir ki, cənab Prezident Azərbaycanı yaşadır, inkişaf etdirir.

Ulu Öndər Heydər Əliyevin möhkəm təməllər üzərində ucaltdığı əzəmətli, müstəqil Azərbaycanın bugünkü inkişafı birmənalı olaraq dövlət başçısının uğurlu siyasətinin nəticəsidir. Bütün dünyanı çənginə alan koronavirusun Azərbaycana təsirinin aradan qaldırılması istiqamətində hazırlanan dövlət proqramı da təsdiq edir ki, ürəyi xalqla döyünən, hər bir vətəndaşının yanında olan Prezidentimiz var. Bu çətin günlərdə xalqın sağlamlığını və rifahını əsas götürərək gördüyü işlər bizi də ölkəmizin firavanlığı üçün əlimizdən gələni əsirgəməməyə həvəsləndirir.

Hazırda Yer kürəsinin 200-dən çox dövlətinin ərazisinə yayılan bu virus ölkəmizdən də yan keçmədi. Lakin Prezidentimizin uzaqgörən siyasətinin nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatının siyahısında Azərbaycan bu yoluxucu xəstəlikdən ölüm sayına görə sonuncu pillələrdədir.

Bu gün dünyanı aciz vəziyyətə salmış, səhiyyəsi, iqtisadiyyatı güclü inkişaf etmiş ölkələri belə çətinliklər qarşısında qoyan koronavirusla mübarizədə Prezidentimizin xalqımız üçün gördüyü işlər, qəbul etdiyi uzaqgörən qərarlar insanların ona olan inam və güvənini daha da möhkəmləndirir.

Prezidentin “1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” 2020-ci il 24 aprel tarixli sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının növbəti parlaq təzahürüdür. Bütün bu xeyirxah işlərinə görə Bakı şəhəri Yasamal rayonunun müharibə, əmək və silahlı qüvvələr veteranları adından cənab Prezidentə minnətdarlığımızı, sonsuz təşəkkürümüzü bildiririk.

Son vaxtlar respublikamızda aparılan köklü islahatlar da bir daha göstərir ki, Prezident daim xalqın yanındadır. Aparılan kadr islahatları göstərir ki, cənab Prezident xalqımızı düşünür, əhalinin sosial rifah halının yaxşılaşdırılması üçün gecə-gündüz yorulmadan çalışır. Lakin bəzi üzdəniraq məmurlar tutduqları vəzifələrdən sui-istifadə edərək xalqın malını talayır, haqqını tapdalayır, yalnız özlərini, ailəsini düşünürlər. Son günlər korrupsiyaya qarşı mübarizə sahəsində atılan qətiyyətli addımlar hər birimizin ürəyincədir.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanımız gündən-günə inkişaf edir, xalqımız əmin-amanlıq içində yaşayır. Bütün bunlara görə cənab İlham Əliyevə bir daha dərin təşəkkürümüzü bildirir, Azərbaycanı daim irəli aparmasını arzulayırıq. Allah Prezidentimizi və xalqımızı qorusun, amin!

***Vaqif MƏMMƏDOV,***
***Bakı şəhəri Yasamal Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri***

# Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ n?mr?li Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 14; 2001, № 11, maddə 669; 2002, № 5, maddə 237; 2006, № 6, maddə 478; 2007, № 8, maddə 756, № 11, maddə 1075; 2008, № 8, maddə 701, № 10, maddə 886; 2009, № 4, maddə 211, № 7, maddə 519; 2010, № 3, maddə 171; 2013, № 3, maddə 230, № 5, maddə 471, № 11, maddələr 1297, 1310; 2014, № 11, maddə 1342; 2015, № 5, maddə 498; 2017, № 1, maddə 31; 2018, № 12 (I kitab), maddə 2506) ilə təsdiq edilmiş “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 23-1-ci maddə üzrə:

1.1. birinci hissəyə “Əcnəbilərə” sözündən sonra “və ya vətəndaşlığı olmayan şəxslərə” sözləri, “əcnəbilərin” sözündən sonra isə “və ya vətəndaşlığı olmayan şəxslərin” sözləri əlavə edilsin;

1.2. ikinci hissəyə, həmin hissənin “b” (hər iki halda) və “c” (hər iki halda) bəndlərinə ismin müvafiq hallarında “əcnəbi” sözündən sonra ismin müvafiq hallarında “və ya vətəndaşlığı olmayan şəxs” sözləri əlavə edilsin;

1.3. dördüncü hissə beşinci hissə hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“İnsan alverindən zərər çəkmiş hesab edilən və ya cinayət təqibi orqanlarına yardım göstərən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatı cinayət təqibi orqanının yerləşdiyi ünvan üzrə aparılır.”.

2. 23-2-ci maddə üzrə:

2.1. birinci cümləyə “əcnəbi” sözündən sonra “və ya vətəndaşlığı olmayan şəxs” sözləri əlavə edilsin;

2.2. ikinci cümləyə “əcnəbini” sözündən sonra “və ya vətəndaşlığı olmayan şəxsi” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

# Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 443; 2006, № 6, maddə 486, № 11, maddə 927, № 12, maddə 1013; 2007, № 1, maddə 1, № 5, maddə 441, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 3, maddə 155, № 4, maddə 253; 2009, № 6, maddə 399; 2010, № 3, maddə 171, № 6, maddə 484; 2016, № 2 (I kitab), maddə 194; 2017, № 7, maddə 1259; 2018, № 12 (I kitab), maddə 2474) ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 69-1-ci maddə əlavə edilsin:

“69-1. Vergi orqanlarının vəzifəli şəxsləri əsas məzuniyyətə çıxarkən onlara ildə bir dəfə bir aylıq vəzifə maaşı həcmində müavinət ödənilir.”;

1.2. 73-cü maddə aşağıdakı redaksiyada verilsin:

“73. Vergi orqanlarının vəzifəli şəxslərinə xidmətin ikinci ilindən başlayaraq, vergi orqanlarında xidmət illərinə görə hər ay aşağıda göstərilən məbləğdə əlavə haqq ödənilir:

1 ildən 5 ilədək - vəzifə maaşının 5 faizi məbləğində;

5 ildən 10 ilədək - vəzifə maaşının 10 faizi məbləğində;

10 ildən 15 ilədək - vəzifə maaşının 20 faizi məbləğində;

15 ildən yuxarı - vəzifə maaşının 30 faizi məbləğində.”.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 21-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191, № 8, maddə 1380, № 11, maddə 1686) aşağıdakı dəyişikliklər edilsin:

1. 37.6-cı maddədə “keçənədək” sözü “, bu Məcəllənin 38.3-cü maddəsində nəzərdə tutulmuş ölkələrin vətəndaşlarına və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə münasibətdə ən geci 3 iş günü” sözləri ilə əvəz edilsin.

2. 45.1.9-cu maddədə “və ümumtəhsil” sözləri “, habelə peşə təhsili və ümumi təhsil” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# “1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair” Protokolunun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2019-cu il sentyabrın 9-da Nur-Sultan şəhərində imzalanmış “1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair” Protokol Azərbaycan Respublikasının ona dair bəyanatı ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2020-ci il*

# “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında vergi inzibatçılığının həyata keçirilməsi üçün elektron formada məlumat mübadiləsi haqqında” Protokolun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Astana şəhərində keçirilmiş 2018-ci il 2 noyabr tarixli iclasında imzalanmış “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında vergi inzibatçılığının həyata keçirilməsi üçün elektron formada məlumat mübadiləsi haqqında” Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46; 2018, № 7 (I kitab), maddə 1492; 2019, № 3, maddə 414, № 7, maddə 1247, № 10, maddələr 1580, 1592; 2020, № 2, maddə 109) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi”ndə dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2020-ci il*

# Milli Məclisin Sədri Sahibə Qafarova videokonfrans formatında seçicilərin qəbulunu keçirib

Mayın 20-də 98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat, Milli Məclisin Sədri Sahibə Qafarova videokonfrans formatında seçicilərin qəbulunu keçirib.



Bu barədə AZƏRTAC-a parlament Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Videoqəbulda deputat seçicilərin orta məktəb binalarının və uşaq evi-bağçaların təmiri, sakinlərin içməli su ilə təminatı, elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması, Atabəy kəndinin qazlaşdırılması, bəzi kəndlərdə aralıq su kanallarının təmiri və betonlaşdırılması, gənclərlə bağlı layihələrin reallaşdırılması və digər məsələlərlə əlaqədar müraciətlərini dinləyib. Qeyd olunub ki, millət vəkili S.Qafarova seçicilər tərəfindən qaldırılan bəzi məsələlərin həlli ilə beşinci çağırış Milli Məclisin üzvü kimi məşğul olub, bunlarla bağlı müvafiq dövlət qurumlarına müraciət ünvanlanıb. Hazırda isə həmin məsələlər müvafiq Dövlət Proqramında öz əksini tapıb.

Sahibə Qafarova qeyd edib ki, seçiciləri narahat edən bu kimi məsələlərin həlli, vətəndaşların layiqli həyat şəraitinin təmin olunması Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin başlıca prioritetlərindəndir. O, son illərdə ölkəmizdə çox mühüm əhəmiyyət kəsb edən infrastruktur layihələrinin reallaşdırıldığını, Şəmkir rayonunda da bu istiqamətdə bir sıra tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb. Deputat təhsil infrastrukturunun yaxşılaşdırılmasının ölkəmizdə sosial siyasətin başlıca hədəflərindən biri olması, bununla bağlı dövlət proqramlarının icra edilməsi, xüsusilə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələrin əhəmiyyəti barədə də məlumat verib.

Sahibə Qafarova, həmçinin ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində görülən tədbirlər haqqında da məlumat verərək bildirib ki, ölkəmizdə bu məqsədlə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı tədbirlər həyata keçirilib və bu tədbirlərin nəticəsidir ki, hazırda virusun yayılması ilə bağlı vəziyyət nəzarət altına alınıb. Ona görə də ölkəmizdə koronavirusla əlaqədar karantin rejimi çərçivəsində tətbiq olunan bir sıra məhdudiyyətlər sanitar-epidemioloji vəziyyətə uyğun olaraq yumşaldılır, karantin rejimindən mərhələli çıxış mexanizmləri tətbiq edilir. Bununla belə, təhlükə hələ tam sovuşmayıb və gündəlik yoluxma halları qeydə alınmaqdadır. Bunu nəzərə alaraq S.Qafarova hər kəsin Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl etməyinin vacibliyini vurğulayıb. O, seçiciləri mövcud vəziyyətlə əlaqədar zəruri sosial davranış, şəxsi gigiyena və tibbi-profilaktik qaydalara əməl etməyə, sosial məsafəyə riayət etməyə, zərurət olmadığı halda evdən çıxmamağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa çağırıb.

Deputat deyib ki, koronavirus pandemiyası ilə əlaqədar tətbiq edilən məhdudiyyətlər seçki dairələrində fəaliyyətə də müəyyən dərəcədə təsir göstərib. İndi seçicilərlə təmaslar məsafədən həyata keçirilir. Bununla bağlı müxtəlif formalar tətbiq edilir, o cümlədən onlayn rejimdə görüşlər keçirilir. Bu gün keçirilən videoqəbul da bu məqsədlə təşkil olunub. Sahibə Qafarova qarşıdakı dövrlərdə də seçicilərlə videokonfrans vasitəsilə görüşlərin davam etdiriləcəyini bildirib.

Qeyd edək ki, görüşdə Şəmkir Rayon İcra Hakimiyyətinin nümayəndələri də iştirak edib. Seçici müraciətlərində əksini tapan bəzi məsələlər yerli xarakterli olduğundan baxılması üçün icra hakimiyyəti nümayəndələrinə yönləndirilib. Digər bir qismi müraciətlərin araşdırılması üçün aidiyyəti orqanlara sorğular göndərilib.

# Adil ƏLİYEV: “ABŞ-ın maraqları Azərbaycanla strateji tərəfdaşlığı diktə edir”

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə göndərdiyi təbrik məktub iki ölkə arasındakı əməkdaşlığın mövcud durumundan xəbər verir.



Bu fikri AZƏRTAC-a Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Məktubda yer alan fikirlərin çox əhəmiyyətli olduğunu vurğulayan Adil Əliyev deyib: “Birincisi, Ağ ev sahibi məktubunda yazır ki, Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. İkincisi, Ağ ev sahibi Birləşmiş Ştatların və Azərbaycanın beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq etdiyini xatırladıb. ABŞ Prezidenti Azərbaycanın bu fəaliyyətdə mühüm töhfələr verdiyini yüksək dəyərləndirib. Üçüncüsü, məktubda vurğulanır ki, koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır”.

Milli Məclis Sədrinin müavini qeyd edib ki, məktubda yazılan “iki böyük xalq” ifadəsi ABŞ Prezidentinin Azərbaycan xalqına verdiyi yüksək qiymətdən xəbər verir. ABŞ Azərbaycana strateji tərəfdaş olan ölkələrdəndir. Dövlət başçısı İlham Əliyev Amerikanın Azərbaycanın enerji layihələrinə verdiyi dəstəyi hər zaman yüksək qiymətləndirib. 1990-cı illərin ortalarında Türkiyə ilə birgə ABŞ-ın Bakı-Tbilisi-Ceyhan neft boru xəttinə verdiyi dəstək Azərbaycanın müstəqillik illərində ilk böyük enerji layihəsinin həyata vəsiqə qazanmasını sürətləndirdi. Halbuki, bu layihə ilə bağlı dövlətimizə qarşı açıq və gizli təhdidlər mövcud idi. Bu təhdidlərə baxmayaraq, Ümummilli Lider Heydər Əliyev həm “Əsrin müqaviləsi”ni, həm də Bakı-Tbilisi-Ceyhan boru xəttinin tikintisi ilə bağlı sazişi imzaladı. Prezident İlham Əliyev isə Ümummilli Liderin siyasətini davam etdirərək Bakı-Tbilisi-Ceyhan boru xəttinin fəaliyyətə başlamasını, o cümlədən “Əsrin müqaviləsi”nin növbəti 25 il üçün də uzadılmasını təmin etdi. Rəsmi Vaşinqton Prezident İlham Əliyevin Azərbaycan dövlətinin gücləndirilməsinə xidmət edən bu siyasətini dəstəkləyir. Çünki bu siyasət Amerikanın da maraqlarına cavab verir. Digər tərəfdən, Azərbaycanın Amerika ilə formalaşdırdığı əməkdaşlıq əsla üçüncü ölkələrə qarşı yönəlməyib.

Adil Əliyev deyib ki, ABŞ Prezidentinin məktubunda da vurğulandığı kimi, iki ölkə arasında strateji əlaqələr bir neçə sahəni əhatə edir. Bu sırada enerji, təhlükəsizlik və iqtisadi əlaqələrin özünəməxsus yeri var. Doğrudur, ABŞ Konqresinin və Dövlət Departamentinin Azərbaycanın maraqları əleyhinə zaman-zaman qəbul etdiyi sənədləri ciddi tənqid edirik. Ancaq Amerikada əsas söz sahibi olan Prezidentin Azərbaycanla əməkdaşlığa verdiyi dəyər bizim üçün daha vacibdir.

“Cənubi Qafqazın hər baxımdan əsas ölkəsi Azərbaycandır. Bunu Vaşinqtonda da anlayırlar. Təsadüfi deyil ki, ABŞ-ın müasir xarici və təhlükəsizlik siyasətinin başlıca ideoloqları Avrasiya bölgəsində dünyəvi müsəlman ölkəsi olan Azərbaycanla strateji əlaqələrin Birləşmiş Ştatların milli təhlükəsizlik siyasətinin maraqlarına cavab verdiyini bildirirlər. Amerikada dəyişən prezidentlər siyasətlərini məhz bu ideologiya əsasında qururlar. Bəzən olur ki, ABŞ-ın hansısa tanınmış siyasətçisi prezident olmamışdan əvvəl erməni lobbisinə hansısa vəd verir. Ancaq həmin siyasətçi prezident seçildikdən sonra ölkəsinin milli və təhlükəsizlik maraqlarından çıxış edir. Həmin maraqlar isə Azərbaycanla strateji tərəfdaşlığı diktə edir”, - deyə parlament Sədrinin müavini bildirib.

# Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin iclası olub

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin mayın 20-də keçirilən iclasında 7 məsələyə baxılıb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə komitə sədri Səməd Seyidov gündəlik barədə məlumat verib.

Komitə sədri VI çağırış Milli Məclisdə Sədr Sahibə Qafarovanın rəhbərliyi ilə parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində böyük islahatların aparıldığını vurğulayıb, görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb, parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətə başladığını bildirib. Səməd Seyidov qarşıdan gələn Ramazan bayramı və Respublika Günü ilə əlaqədar deputatlara təbriklərini çatdırıb.

Sonra iclasa dəvət olunmuş Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin müdiri İlkin Məmmədov çıxış edib. Bildirib ki, yeni tərkibdə fəaliyyətə başlamış Milli Məclisdən həm cəmiyyətin, həm də ölkə rəhbərinin gözləntiləri çox böyükdür. Bu gözləntilər arasında parlamentin beynəlxalq fəaliyyəti ilə əlaqədar məqamlar da var və bu, mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti VI çağırış Milli Məclisin ilk iclasında parlamentarlardan beynəlxalq arenada çox fəal olmalarını istəyib. Bu baxımdan bütün deputatların, xüsusilə də Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin, eləcə də Beynəlxalq münasibətlər şöbəsinin üzərinə böyük məsuliyyət düşür.

Çıxışında parlament diplomatiyasının əhəmiyyətini xüsusi vurğulayan İlkin Məmmədov qeyd edib ki, parlament diplomatiyamızın Prezident İlham Əliyevin qarşıya qoyduğu hədəflər istiqamətində daha fəal və təsirli formada qurulması işində deputatlarla bərabər fəaliyyət göstərməyə tam hazırıq.

Sonra Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov gündəlikdəki qanun layihələrini şərh edib. Əvvəlcə bu il fevralın 25-də Azərbaycan və Türkiyə hökumətləri arasında Bakıda imzalanmış Sazişlər və Əlavə Protokol barədə məlumat verib. Bildirib ki, bu sənədlər Azərbaycan-Türkiyə əlaqələrinin yeni mərhələyə yüksəlməsi üçün çox vacibdir. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi” ölkəmizin iqtisadi maraqlarına uyğundur.

Qeyd olunub ki, “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azadetmə haqqında” Saziş vacib və əhəmiyyətli məsələləri əhatə edir. Belə ki, bu sənəd ölkələrimiz arasında dostluq və əməkdaşlığı möhkəmləndirməklə yanaşı, Azərbaycan və Türkiyə vətəndaşlarının səfərlərini də asanlaşdıracaq. Saziş hər iki tərəfin etibarlı pasport sahiblərinə şamil ediləcək. Yəni tərəflərin vətəndaşlarına məxsus pasportların ölkəyə giriş tarixindən etibarən ən azı 6 ay etibarlılıq müddəti olmalıdır və qonşu ölkədə vizasız maksimum qalma müddəti 90 gün nəzərdə tutulur.

Komitə üzvlərinə məlumat verilib ki, “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında” Sazişin məramı uzun illər mövcud olan dostluq əlaqələri çərçivəsində hərbi əməkdaşlığı daha da möhkəmləndirməkdir.

Nəzərə çatdırılıb ki, 2013-cü ilin 13 noyabrında Ankarada imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş”də 2020-ci ilin 25 fevralında zəruri dəyişikliklər edilib. Müasir çağırışlardan irəli gələn həmin dəyişikliklərə dair Bakıda imzalanmış Əlavə Protokoldakı müddəalar mühüm əhəmiyyətə malikdir.

Sonra Səməd Seyidov Azərbaycan və Türkmənistan hökumətləri arasında bu il martın 11-də Bakıda imzalanmış sənədlər barədə məlumat verib. Bildirib ki, “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının Türkmənistandakı Səfirliyinin və Türkmənistanın Azərbaycan Respublikasındakı Səfirliyinin yerləşməsi üçün qarşılıqlı olaraq torpaq sahələrinin ayrılması haqqında” Saziş ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətlərini daha da inkişaf etdirmək, qarşılıqlı olaraq diplomatik nümayəndəliklərin fəaliyyəti üçün əlverişli şərait yaratmaq məramına xidmət edir.

Deputatların diqqətinə çatdırılıb ki, “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında 2008-ci il 19 may tarixli Sazişə dəyişikliklər və əlavələr edilməsi barədə” Protokolda ehtiva olunan əlavə və dəyişikliklər ölkələrimiz arasında avtomobil əlaqəsinin asanlaşdırılmasına, həmçinin bu iki dövlətin ərazisindən üçüncü ölkələrə tranzit üçün əlverişli şəraiti təmin etməyə yönəldilib.

Sənədlər barədə məlumat dinlənildikdən sonra iclasda fikir mübadiləsi aparılıb. Müzakirələrdə Sabir Rüstəmxanlı, Ramil Həsən, Elman Nəsirov rəy və təkliflərini bildiriblər. Vurğulanıb ki, komitəyə təqdim olunmuş bütün sənədlər Azərbaycanın milli maraqlarına uyğundur.

Komitədə baxılan Azərbaycanla Türkiyə və Azərbaycanla Türkmənistan arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə dair sazişlərin və protokolların təsdiq edilməsi barədə qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda cari məsələlərə baxılıb. Məzahir Əfəndiyev, Elman Nəsirov, Asim Mollazadə, Cavanşir Feyziyev, Ramil Həsən beynəlxalq təşkilatlarla münasibətlərin daha səmərəli qurulması, xaricdə yaşayan azərbaycanlılarla sıx əlaqələrin yaradılması, parlament və hökumət arasında əməkdaşlığın vacibliyi, Azərbaycan XİN və Diaspor Komitəsi ilə birgə iş aparılması zərurətini və s. önə çəkiblər. Yekunda komitə sədri səslənən fikirlərə münasibətini bildirib.

# İctimai-siyasi sabitlik inkişafımızın əsasıdır

Əvvəli 1-ci səh.

Yaxud böyük bir rayonun rəhbəri vəzifəsindən azad edilib yerinə başqası gətirilir, dövlət başçısı isə bunu bilmir.

Cəbhədə döyüşməli olan canlı qüvvə, texnika siyasi məqsədlər üçün Bakıda cəmləşdirilir, ancaq cavabdeh şəxslər dillənmirlər.

O dövrün belə nümunələri bir deyil, yüzlərlə, minlərlədir. Sözsüz ki, ölkə vətəndaşları bu özbaşınalıqları, məsuliyyətsizliyi görməmiş, duymamış, həyatlarında hiss etməmiş deyildirlər.

Yol kənarından zorla maşına mindirilib səngərə atılan və düşmən gülləsinə tuş gələn gənc oğlunun faciəli taleyini yaşayan valideyn heç zaman hakimiyyətdən razı qala bilməzdi.

Heç bir səbəb olmadan incidilən, təhqir olunan, maşını, əmlakı əlindən alınan, etiraz edəndə həbsə atılan insan iqtidara arxa durmazdı.

Çətin gündə kömək, qayğı görməyən, siyasi oyunların qurbanına çevrilən, əzizlərini, gələcək həyatını təhlükədə, ölkəsini çətinlikdə görən, rəhbərlərinin fərasətsizliyinin, laqeydliyinin şahidi olan vətəndaş öz rəhbərinə ümid etməz, ondan kömək gözləməz.

Ziyalısını, veteranını, ağsaqqalını qiymətləndirməyən, hörmət etməyən, xalqın, torpağının taleyini düşünməyən, lovğa, təkəbbürlü, bacarıqsız rəhbəri xalq sevməz, dəstəkləməz, ona etimad göstərməz.

Ona görə də bəlalarımızın başlıca səbəbini Sovetlər İttifaqının dağılmasında deyil, 1988-ci ildən 1993-cü ilin ortalarına kimi Azərbaycana rəhbərlik edənlərin acizliyində, qətiyyətsizliyində, liberallığında görmək daha düzgün olar.

Bu bir həqiqətdir ki, əgər o dövrdə Azərbaycana Heydər Əliyev kimi müdrik bir insan rəhbərlik etsəydi, biz torpaqlarımızı itirməzdik, görünməmiş faciələri yaşamazdıq. Ulu Öndərin çətin bir vaxtda, 1993-cü ilin iyun ayında hakimiyyətə gəldiyi ilk gündən həyata keçirdiyi qətiyyətli tədbirlər, siyasi gedişlər, ictimai sabitliyin bərpa edilməsi, özbaşınalıqların, qarşıdurmaların aradan qaldırılması, silahlı dəstələrin ləğv edilməsi, iqtisadiyyatın, sosial həyatın inkişafı üçün atılan addımlar, görülən işlər bunu deməyə əsas verir. Topla, tüfənglə, zorla qarşısı alına bilinməyən silahlı qruplaşmaların, hərc-mərcliyin qarşısını Heydər Əliyev öz təfəkkürü, ağlı, uzaqgörənliyi, təşkilatçılığı, prinsipiallığı və ən başlıcası, xalqına qayğısı, inamı, xalqın rəhbərinə olan hörməti, etimadı sayəsində ala bildi və tez bir zamanda ölkədə əmin-amanlıq, sabitlik yaratdı.

Heydər Əliyev qətiyyətlə deyirdi: "Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir". Ulu Öndər bunun üçün vətəndaş həmrəyliyinin, birliyin, vətənə, dövlətə sədaqətin çox vacib olduğunu xatırladır, anarxiyanın, özbaşınalığın, xaosun, təkəbbürlülüyün qəbuledilməzliyini bildirir və yerini, hərəkətini, sözünü bilməyənlərə, ölkənin imicinə kölgə salanlara, vəzifəsini bacarmayanlara, şəxsi mənafeyi ictimai mənafedən üstün tutanlara, xalqın rifahı naminə mövqe bildirməyənlərə qarşı ciddi tədbirlər görürdü. O, nizam-intizamlı, qayda-qanunlara əməl edən insanları sevir və qiymətləndirirdi.

Azərbaycanın tədricən iqtisadi, siyasi, mənəvi böhrandan uzaqlaşması, bu gün qüdrətli, sürətlə inkişaf edən bir dövlətə çevrilməsi məhz ölkədə yaradılan ictimai-siyasi sabitliyin nəticəsində mümkün olmuşdur. Əlbəttə, bunun üçün, ilk növbədə, xalqımız Ümummilli Lider Heydər Əliyevə və bu sabitliyi, milli birliyi, vətəndaş həmrəyliyini qoruyub möhkəmləndirən, dövlətimizin uğurları, xalqımızın sosial-rifah halının yaxşılaşdırılması üçün əlindən gələni əsirgəməyən, mühüm layihələrə imza atan, islahatlar, tədbirlər həyata keçirən, proqramlar təqdim edən cənab İlham Əliyevə borcludur, minnətdardır.

Ölkədə hökm sürən sabitliyi, birliyi, qarşılıqlı hörmət və ehtiramı əldə olunan müvəffəqiyyətlərin əsası, təkanverici qüvvəsi, xalqın dövlətinə sədaqət və məhəbbətinin ifadəsi kimi hər bir çıxışında səsləndirən, yüksək dəyərləndirən İlham Əliyev bu əmin-amanlığın heç zaman pozulmasına yol verilməyəcəyinə əmin olduğunu bildirməklə bərabər, həm də dincliyimizi pozanlara, xalqımızın, dövlətimizin adına, uğurlarına qara yaxanlara qarşı ciddi mübarizə aparılacağını bəyan edir. Məqsəd aydın, seçim düzgün, yol inkişafa doğrudur.

İlham Əliyevin Prezident seçildiyi 2003-cü ildən sonrakı dövrlərin sosial-iqtisadi göstəriciləri, həyata keçirilən layihələr, proqramlar, qəbul olunan yol xəritələri, imzalanan fərman və sərəncamlar buna bir nümunədir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla yerinə yetirilməsi və davam etdirilməsi ölkənin sosial-iqtisadi, mədəni həyatını kökündən dəyişdirmişdir. Dövlət başçısının qeyd etdiyi kimi, "Azərbaycan inkişaf, sabitlik yolu ilə getmişdir. Bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir".

Məqsədin aydınlığı və aliliyi qazanılan nəticələrdə özünü göstərir.



Belə ki, 2003-cü ildən indiyə kimi Azərbaycan iqtisadiyyatı 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, qeyri-neft ixracı 5,2 dəfə, valyuta ehtiyatlarımız 27 dəfə, orta əməkhaqqı 11 dəfə, orta pensiya 8 dəfə artmışdır. Bu illər ərzində 33 elektrik stansiyası, 3 300 məktəb, 700-dən çox tibb müəssisəsi tikilib, təmir olunub istifadəyə verilmişdir. 17 min kilometrə yaxın yol çəkilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi beynəlxalq əhəmiyyətli layihələr reallaşmışdır. Ölkə üzrə qazlaşmanın səviyyəsi 51 faizdən 96 faizə çatdırılmışdır. Yüz minlərlə məcburi köçkünə, şəhid ailələrinə evlər tikilib, mənzillər verilmişdir. Bunlar dövlət başçısı tərəfindən görülən işlərin və həyata keçirilən tədbirlərin bir hissəsidir.

Aqrar sahəyə də qayğı, diqqət unudulmamışdır və bu sahə iqtisadiyyatın inkişafında mühüm əhəmiyyət daşıyır. Çünki kənd təsərrüfatı tarixən respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olmuş, insanların həyat şəraitinin yaxşılaşmasında illər boyu mühüm rol oynamışdır. Ümummilli Lider sovetlər dövründə hakimiyyətdə olduğu illərdə ölkədə kənd təsərrüfatını inkişaf etdirməklə respublikanı ittifaqın qabaqcılları sırasına çıxara bilmiş, xalqımıza böyük şöhrət qazandırmışdır. Çox təəssüflər olsun ki, müstəqilliyimizə qədəm qoyduğumuz 1990-cı illərdə ölkənin kənd təsərrüfatı sistemi tamamilə dağıdıldı, bərbad hala salındı. Üzüm, çay plantasiyaları, heyvandarlıq kompleksləri, emal müəssisələri, su-drenaj şəbəkələri, maşın-mexanizmlər, su-nasos qurğuları, sınaq-təcrübə stansiyaları məhv edildi. Həmin özbaşınalıqların ağrısını isə bir neçə illər kənd əməkçiləri - pambıqçılıqla, baramaçılıqla, əkinçiliklə məşğul olan insanlar çəkməli oldular.

İşıq, yol, su, qaz təminatı olmadan, əməkçilər üçün imkan və şərait yaradılmadan kənd təsərrüfatını inkişaf etdirmək mümkün deyil. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan tədbirlər, qarşıya qoyulan vəzifələr məhz bu istiqamətə - regionlarda insan həyatı və fəaliyyəti üçün vacib olan məsələlərin həllinə, problemlərin aradan qaldırılmasına yönəldildi və bu da digər sahələrlə bərabər kənd təsərrüfatının inkişafına mühüm təkan verdi.

Bu gün regional inkişafda, iqtisadiyyatın sürətləndirilməsində və şaxələndirilməsində aqrar sektor aparıcı rol oynayır və bu sahədə həyata keçirilən tədbirlər çoxşaxəlidir, diqqət qarşıda duran vacib məsələlərin həllinə yönəldilmişdir. Bilavasitə ərzaq təhlükəsizliyinin təmin olunmasına, işsizliyin aradan qaldırılmasına, insanların maddi vəziyyətinin yaxşılaşdırılmasına, kəndin inkişafına xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda diqqəti qeyri-neft sektorunda artımın 14 faizdən çox olmasına, 98 min iş yerinin yaradılmasına yönəltməklə bu sahədə kiçik və orta sahibkarlığın inkişafını, biznes mühitinin yaxşılaşmasını mühüm amil kimi qeyd etmiş və bildirmişdir ki, burada aqrar sektor əsas yer tutur.

Aqrar sektorun inkişafı ilə əlaqədar qəbul olunmuş bir çox qanunlar, tərtib edilmiş proqramlar, layihələr, imzalanmış fərman və sərəncamlar bu sahənin ildən-ilə irəliləməsinə, çətinliklərin aradan qaldırılmasına imkan yaratmış, ölkə iqtisadiyyatına, insanların həyat şəraitinə faydalar vermişdir. Dövlət başçısının "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" və "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" keçən il imzaladığı fərmanlar inkişafımıza yeni təkandır. Məhz buna görə də 2019-ci il aqrar sahədə çalışanlar üçün uğurlu olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalı çoxalmış, məhsuldarlıq yüksəlmiş, ixrac artmış, qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirilmişdir.

Taxıl, qarğıdalı, günəbaxan, pambıq, şəkər çuğunduru, tütün, kartof, tərəvəz, üzüm, yaşıl çay yarpağı, barama, bostan məhsulları istehsalı əvvəlki illərlə müqayisədə xeyli artmış, heyvandarlıq və quşçuluq inkişaf etdirilmiş, emal müəssisələri məhsullarının ixracında 14 faizlik artım əldə edilmişdir. Pambıqçılıqda qazanılan nəticələr daha uğurludur. Əvvəlki ilə nisbətən pambıq əkin sahəsinin 32 min hektar azaldılmasına baxmayaraq, məhsul istehsalı 61,7 min ton artırılmış, hər hektardan 29,5 sentner (hər hektardan 12 sentner çox), ümumilikdə 295,3 min ton məhsul yığılmışdır. "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş bir çox vəzifələrin yerinə yetirilməsinə dövlət mühüm dəstək vermişdir. Çünki pambıqçılıq strateji və ölkəyə valyuta gətirən bir sahədir. Proqramda göstərildiyi kimi, "Azərbaycanda pambıq istehsalı üçün əlverişli təbii iqlim şəraitinin mövcudluğu, emal sənayesinin xammala tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları, həmçinin pambıq və ondan hazırlanmış son məhsullar üzrə ixrac potensialı pambıqçılığın inkişafını zərurətə çevirir. Məhz buna görə də ölkədə pambıqçılığın inkişafına əlverişli şəraitin yaradılması aqrar siyasətin prioritet vəzifələrindən biri kimi müəyyən edilmişdir".

Dövlət proqramlarının uğurla yerinə yetirilməsi, fərman və sərəncamların müvəffəqiyyətlə həlli isə dövlət başçısı tərəfindən aqrar sahənin inkişafına göstərilən qayğı və diqqətin nəticəsində mümkün olmuşdur. Son illər sahibkarlara güzəştli şərtlərlə iki milyard manatdan çox vəsait ayrılmışdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə aqroparkların, emal müəssisələrinin yaradılmasına üstünlük verilmişdir. Aqroparkların timsalında məhsuldarlığın yüksək olduğunu xatırladan dövlət başçısı qeyd etmişdir ki, keçən il taxılçılıqda bizim orta məhsuldarlığımız kifayət qədər yüksək olub - hektardan 32 sentner, böyük irəliləyişdir. Ancaq iri fermer təsərrüfatlarında bu, 50 sentner, bəzi yerlərdə 60 sentnerdir. Bu onu göstərir ki, aqroparkların yaradılması çox düzgün qərar idi.

Dövlət başçısı, hökumət tərəfindən kənd təsərrüfatına, sahibkarlara göstərilən dəstək hərtərəflidir. Bu, güzəştli kreditlərin verilməsində, vergilərdən azad olmada, yeni subsidiya mexanizminin tətbiqində, istehsal olunan məhsulun dəyərinin vaxtında ödənilməsində, yeni texnologiyaların, təcrübənin işə tətbiq olunmasında özünü göstərir. İstehsalın artımı başqa sahələrin inkişafını, xüsusilə emal sənayesinin yaradılmasını zərurətə çevirir. Üzümçülüyün, baramaçılığın, pambıqçılığın, tütünçülüyün, eləcə də digər sahələrin inkişafı bunu tələb edir. Prezidentimiz bu məsələlərə aydınlıq gətirərək deyir: "Kənd təsərrüfatında emal sektoruna xüsusi diqqət göstərilməlidir. Təkcə keçən il üzüm tədarükü 34 min ton artıbdır. Bu, birbaşa şərabçılıq sənayesini yaradır... o cümlədən tütünçülük... baramaçılıq da həmçinin. Pambıqçılıq birbaşa emal sənayesini şərtləndirir. Tərəvəzçilik də həmçinin".

Emal sənayesinin yaradılması ixracın artırılması ilə bərabər, yeni iş yerlərinin açılması, ölkəyə əlavə valyutanın daxil olmasıdır. Kənd təsərrüfatı sahəsində ciddi islahatların aparıldığı bir vaxtda tədarük olunan məhsulun xammal halında deyil, emal edilərək satılması, ixraca yönəldilməsi mənfəət baxımından çox əhəmiyyətlidir.

Ölkədə kənd təsərrüfatı məhsulları istehsalı sürətlə artmaqdadır. Dövlət başçısının xatırlatdığı kimi, barama istehsalı 25, pambıq 26, yumurta 9, günəbaxan 43, kartof 12, tərəvəz 12, bostan məhsulları 11, meyvə və giləmeyvə 9, yaşıl çay yarpağı 7, üzüm 20 faiz artmışdır. Heyvandarlıq sahəsində də artım müşahidə olunmaqdadır. Ümumiyyətlə, 2019-cu il kənd təsərrüfatında irəliləyiş, islahatlar ili kimi yaddaqalandır. İl ərzində fermerlərə 380 milyon manat subsidiya verilmişdir. Elektron kənd təsərrüfatı sistemi yaradılmışdır. Aqrar sığorta sistemi işə düşəcəkdir.

"Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" fərmana müvafiq olaraq, hazırlanan kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşması qaydalarının tətbiqi bitkiçiliyin, heyvandarlığın, sahibkarlığın inkişafı üçün yeni imkanlar yaradacaqdır. Aqrar sahədə lizinq fəaliyyətinin liberallaşdırılması, Vergi Məcəlləsində edilmiş dəyişikliklər, aparılmış institusional islahatlar və həyata keçirilən digər bir sıra mühüm tədbirlər aqrar sahənin inkişafına xidmət edir və istehsal nəticələrindən göründüyü kimi öz bəhrələrini verir.

Kənd Təsərrüfatı Nazirliyinin islahatlara, texnoloji proseslərə, qabaqcıl təcrübəyə, müvafiq orqanlarla əlaqələrin möhkəmlənməsinə, idarəetmənin təkmilləşdirilməsinə, əyani görüşlərin, məsləhətləşmələrin vacibliyinə, sahibkarlarla, mütəxəssislərlə münasibətlərin yaxşılaşdırılmasına önəm verməsi, qarşıya qoyulan vəzifələrin aktuallığının qiymətləndirilməsi və işə məsuliyyətin artırılması aqrar sahədə müvəffəqiyyətləri təmin edən başlıca şərtlərdən sayıla bilər və əslində, belədir.

Bu baxımdan "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə qarşıya qoyulan vəzifələr mühüm əhəmiyyət kəsb etmişdir. Dayanıqlı inkişaf prinsiplərinə əsaslanaraq rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və emal sektorunu formalaşdırmaq yol xəritəsində nəzərdə tutulan 9 strateji hədəfin reallaşdırılmasına xidmət edir və hər bir hədəf üçün prioritet istiqamətlər müəyyən olunmuşdur. 2016-2020-ci illəri əhatə edən bu hədəflər, ilk növbədə, kənd təsərrüfatının elmi əsaslarla idarə edilməsini, ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsini, istehsal vasitələri bazarının inkişafını, maliyyə çıxışının asanlaşdırılmasını, elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsini, məsləhət-informasiya xidmətləri sisteminin inkişaf etdirilməsini, bazara çıxışın sadələşməsini, təbii resurslardan dayanıqlı istifadə mexanizminin formalaşdırılmasını, biznes mühitinin təkmilləşdirilməsini və kənd yerlərində rifahın yüksəldilməsi məsələlərini əhatə edir. Bu, əvvəlki illərlə müqayisədə ÜDM-in artırılmasına, yeni iş yerlərinin açılmasına, kənd təsərrüfatı məhsulları istehsalının yüksəldilməsinə, torpaqlardan səmərəli istifadə edilməsinə, kiçik və orta sahibkarlıq subyektlərinin yaradılmasına, suvarma, əkin, ixrac, xidmət, mühafizə potensialının yaxşılaşdırılmasına hesablanmışdır.

Qarşıya qoyulan bu mühüm vəzifələrin həyata keçirilməsi uğurlarımızı təmin etmiş və yerinə yetirilə bilməyən məsələlərin həllinə imkan yaradır.

Bu gün respublikada kənd təsərrüfatının hərtərəfli inkişafı üçün münbit şərait formalaşıb, hüquqi, iqtisadi, mənəvi baza yaradılıb, idarəetmə mexanizmi təkmildir. Son illər Milli Məclisdə aqrar sahə ilə bağlı 300-ə yaxın məsələyə baxılmış, mühüm qanunlar qəbul olunmuş, bir çox qanunlara əlavə və dəyişikliklər edilmişdir. "Taxıl haqqında", "Pambıqçılıq haqqında", "Çayçılıq haqqında", "Arıçılıq haqqında", "Tütün və tütün məmulatları haqqında", "Üzümçülük və şərabçılıq haqqında" və s. qəbul olunmuş bir çox qanunlarda təsbit olunmuş maddələr bilavasitə kənd təsərrüfatı sahələrində işlərin hüquqi müstəvidə tənzimlənməsini təmin edir və normal fəaliyyətin təmin olunmasına istiqamətləndirilmişdir. Sözsüz ki, dövrün tələbi, işlərin gedişi, qarşıya çıxan məsələlər, problemlər yeni qanunların qəbul olunmasını və qanunlara dəyişikliklər edilməsini şərtləndirir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Bundan sonra da artım çox sürətli olacaq, kiçik və orta sahibkarlığa üstünlük veriləcək, iri təsərrüfatların, aqroparkların yaradılması zərurətə çevriləcəkdir".

Toxumçuluq təsərrüfatlarının yaradılması, məhsuldar sortların yetişdirilməsi, damazlıq cinslərin artırılması, müasir texnologiyaların tətbiqi, ixtisaslı, bacarıqlı kadrların hazırlanması, elmi-tədqiqat institutlarının fəaliyyətinin canlandırılması da bu qəbildəndir və dövlət rəhbərinin bildirdiyi kimi, aqrar sahənin inkişafı üçün yeni imkanlar yaradacaqdır. Milli Məclisin birinci iclasında ölkə prezidentinin xatırlatdığı kimi, ölkənin sosial-iqtisadi inkişafı üçün yeni, mütərəqqi qanunların qəbulu və qanunların icrasına nəzarətin gücləndirilməsi vacibdir və bu ölkə iqtisadiyyatının tərəqqisinə əhəmiyyətli fayda verə bilər. Buna görə də hər bir kəs üzərinə düşən vəzifəni layiqincə qiymətləndirib yerinə yetirməlidir.

Aqrar sahə çətin, məsuliyyətli olduğu qədər də maraqlı, cəlbedici, düşündürücüdür. Ölkə əhalisinin təxminən yarısının kənd rayonlarında yaşadığını və bilavasitə çoxunun kənd təsərrüfatı ilə məşğul olduğunu nəzərə alsaq, bu sahəyə diqqət və qayğının artırılmasının vacibliyini, onun ərzaq təhlükəsizliyinin təmin olunmasındakı rolunu aydın görərik. Aqrar sahənin inkişafını ancaq dövlətin üzərinə atmaq düzgün olmazdı, çünki əkinə yararlı, məhsuldar torpaq sahələrinin əksər hissəsi bu gün insanların sərəncamındadır. Bu torpaqlardan səmərəli istifadə etmək, əkmək, becərmək, qorumaq, növbəli əkin sistemi tətbiq etmək, pay torpaqlarını birləşdirib iri təsərrüfatlar - kooperativlər, kooperasiyalar yaratmaq, suya, texnikaya, vəsaitə qənaət etmək sahibkarların vəzifəsidir. Dövlətin vəzifəsi isə sahibkarlara əlavə kömək göstərmək, güzəştli kreditlər, subsidiyalar vermək, onları texnika, gübrə və digər vasitələrlə təmin etmək, hüquqlarını qorumaq, çətinliklərini aradan qaldırmaqdır.

Torpağın sahibi insandır. Əldə ediləcək yüksək məhsul onun təşəbbüskarlığından, işinə münasibətindən, təsərrüfata, qazancına, ailəsini dolandırmağa marağından, düzgün düşünülmüş fəaliyyətindən asılıdır. Son illərin nəticələri göstərir ki, aqrar sahədə çalışan kənd əməkçiləri, sahibkarlar, mütəxəssislər, müvafiq orqanların rəhbərləri kənd təsərrüfatının inkişaf etdirilməsində çox maraqlıdırlar və həyata keçirilən mühüm tədbirlər də bunu sübut edir.

*Azərbaycan vətəndaşı bu gün ölkəsini sabit, inkişaf edən, tanınan, ailəsini dinc, xoşbəxt, süfrəsini çörəkli, özünü vüqarlı, alnıaçıq, torpağını bollu-bərəkətli, azad görmək arzusundadır. Məhz bu arzu, inam vətəndaşlarımızı Prezidentimizin ətrafında sıx birləşdirir, sosial-iqtisadi inkişafımızı sürətləndirir və ölkəmizi daha xoşbəxt gələcəyə aparır.*

**_Tahir RZAYEV,_**
**_Milli Məclisin Aqrar siyasət komitəsinin sədri_**

# Cəsarətli, təşəbbüskar, ən islahatçı Prezident

## Cənab İlham Əliyev mütərəqqi siyasəti ilə qlobal böhranla mübarizəyə həm daxildə, həm də beynəlxalq səviyyədə böyük dəstək verir

Əvvəli 1-ci səh.

Bütün bunlar cənab İlham Əliyevin düşünülmüş uzaqgörən siyasətinin növbəti təntənəsidir desək, heç də yanılmarıq. Göründüyü kimi, Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması pandemiya dövründə də davam etdirilib.

Cənab İlham Əliyev bir daha həyata keçirilən sosial proqramlara diqqət yetirərək vurğuladı ki, ilin əvvəlində, yəni pandemiyanın alovlanan dövründə bir dənə də olsa sosial proqram ixtisar edilməyəcək. Eyni zamanda sosial infrastruktur layihələrinin heç biri ixtisar olunmayıb. Ona görə də bu sahəyə göstərilən diqqət və həyata keçirilən əməli-praktiki addımlar bir daha dövlət siyasətinin mahiyyətini göstərir.

### Ən mütərəqqi və insansevər təcrübə

Prezident həmçinin pandemiya dövründə həyata keçirilən xarici siyasətə də toxunaraq vurğuladı ki, Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik olan ölkədir. Hər zaman olduğu kimi, pandemiya dövründə də Azərbaycan istənilən dövlətlə təcrübəsini bölüşür.

Azərbaycanın koronavirusa qarşı mübarizə sahəsində təcrübəsi ən mütərəqqi və ən insansevər təcrübədir. Azərbaycan Prezidenti isə region və bütövlükdə dünya üçün çox faydalı olan təşəbbüslər irəli sürür. Ümumdünya Səhiyyə Təşkilatı isə bir çox ölkələrə Azərbaycanın təcrübəsindən yararlanmağı tövsiyə edir. Bununla yanaşı, Azərbaycan köməyə ehtiyacı olan dövlətlərə yardımlar edib və xeyirxahlıq missiyasını davam etdirməkdədir: "Xarici siyasətə gəldikdə, biz həmişə əməkdaşlığa üstünlük vermişik və bunun faydasını görmüşük. Harada imkanımız olub, əgər imkanımız olubsa, kömək etməyə çalışmışıq və etmişik. Bizim bir neçə önəmli transmilli layihəmiz məhz bu prinsip əsasında qurulub və uğur da məhz bu prinsip əsasında qazanılır. Ona görə də xarici siyasətdə qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır, həmrəylik əməldə olmalıdır".

Dövlət başçısı son 2 ayda öz təşəbbüsü ilə videokonfrans formatında keçirilən beynəlxalq təşkilatların zirvə görüşlərini də xatırlayaraq dedi ki, Qoşulmama Hərəkatının və Türk Şurasının yekun bəyannaməsində Azərbaycanın xüsusi rolu qeyd olunub. Bu da bir daha sübut edir ki, Azərbaycan hər bir işə çox məsuliyyətlə yanaşır və göstərdiyi səylər formal xarakter daşımır. Ona görə də Azərbaycanı nümunəvi ölkə adlandırırlar:

"Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm, başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu, doğrudan da, görülmüş işlərin məntiqi nəticəsidir. Çünki bəri başdan bizim əsas məqsədimiz xalqımızı, vətəndaşlarımızı bu xəstəlikdən qorumaq idi. Bütün digər iqtisadi məsələlər, iqtisadiyyatın tənəzzülə uğraması, iqtisadiyyatda yarana biləcək problemlər arxa plana keçdi. Halbuki biz bu məsələlərlə də ciddi məşğul olmuşuq. Amma birinci məsələ insanların sağlamlığı, ikinci məsələ insanların sosial təminatı idi ki, biz hər ikisini də təşkil etdik".

### Azərbaycan hər zaman üzüağ və alnıaçıq ölkədir

Göründüyü kimi, pandemiya dövründə də Azərbaycanda əhalinin sosial təminatı ilə bağlı dünyanın çox nadir ölkələrində rast gəlinən kompleks tədbirlər həyata keçirilir. Bütün bunlar da dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən təqdir edilir.

Lakin Prezidentin söylədiyi kimi, pandemiya dövründə həm insanlar, həm də bəzi ölkələr özünün əsl simasını üzə çıxardı: "Elə insanlar var ki, pandemiya dövründə onlara əl vermək böyük günah olar. Elə ölkələr var ki, pandemiya dövründə özlərinə qapanıblar və xüsusilə ilkin mərhələdə bəzi addımlar atıblar və indi yəqin utanırlar. Azərbaycan o ölkələrdəndir ki, həmişə üzüağ, alnıaçıq olub və pandemiya bunu bir daha təsdiqləyib".

Həqiqətən də, Azərbaycan dövləti bütün dövrlərdə ehtiyacı olan insanlara, yardım üçün müraciət edən ölkələrə əl tutub və lazımi köməklik göstərib. Bu da cənab İlham Əliyevin humanist və insansevər siyasətinin bariz təcəssümüdür.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_"Azərbaycan"_**

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

**Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Bakı şəhəri Xətai Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını dinləyib, ekspertin rəyini nəzərdən keçirib və işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsi şəxsin hüquqazidd hərəkətlər nəticəsində öldüyü və ya sağlamlığına zərər vurulduğu halda onun yaxınlarının, o cümlədən ailə üzvlərinin keçirdikləri mənəvi sarsıntı və iztiraba görə təzminat almaq hüququnu ehtiva edir.

Ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınları, o cümlədən ailə üzvləri keçirdikləri mənəvi sarsıntı və iztirabın dərəcəsinə, zərərçəkmiş şəxsə yaxınlıq dərəcəsinə və s. amillərə müvafiq olaraq birgə və ya ayrı-ayrılıqda təzminat almaq hüququna malikdirlər.

Ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınlarından, o cümlədən ailə üzvlərindən birinin mənəvi zərərə görə təzminat almış olduğu halda, digərlərinin təzminat tələbi bu qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilən mütənasiblik və ədalətlilik meyarlarına uyğun olaraq işə baxan məhkəmə tərəfindən həll edilməlidir.

Məhkəmələr tərəfindən mənəvi zərərə görə təzminatın miqdarı müəyyənləşdirilərkən hüquqazidd əməlin növü, dərəcəsi, davam etdiyi müddət, hansı şəraitdə, mühitdə baş verməsi və digər amillər nəzərə alınmalıdır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.



# 2020-ci il "Könüllülər ili"dir



● Gənclər gələcəyimizdir



# Onlar cəmiyyətdə böyük rəğbət qazanıblar

**Prezident İlham ƏLİYEV:** "Çox şadam ki, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusu yaradılıb və könüllülər öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazana biliblər"

**Dövlət başçısı Azərbaycan gəncliyinin son illərdə ictimai həyatda çox fəal rol oynadıqlarından məmnun olduğunu çıxışlarında dəfələrlə dilə gətirib. Prezident xüsusilə könüllülərin fəaliyyətinin diqqət mərkəzində olduğunu vurğulayaraq deyir: "Çox şadam ki, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusu yaradılıb və könüllülər öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazana biliblər, bizim ümumi işimizə çox böyük töhfə verirlər. Könüllülər hərəkatı "ASAN könüllülər"dən başlamışdır. Bu gün "ASAN könüllülər"i, sözün əsl mənasında, Azərbaycan gəncliyinə xas olan ən gözəl xüsusiyyətləri özlərində birləşdirirlər, o xüsusiyyətləri təcəssüm etdirirlər".**

Hazırda digər sahələrdə də könüllülər kifayət qədər geniş fəaliyyət göstərirlər. Dövlət başçısı da daim onların işlərini izləyir və yüksək qiymətləndirir. Azərbaycan Prezidenti hesab edir ki, artıq mərkəzi və yerli icra hakimiyyəti orqanlarına da könüllülər cəlb edilməlidirlər.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına cavab olaraq könüllü təşkilatları və hərəkatları tərəfindən yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizədə dövlətimizin həyata keçirdiyi tədbirlərə dəstək olmaq məqsədilə yaradılan Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzinin mayın 1-də onlayn formatda təşkil olunan növbəti iclasında qurumun fəaliyyətə başladığı 2020-ci il martın 27-dən keçən qısa dövrdə reallaşdırılmış tədbirlər, o cümlədən "Böyüklərimizi qoruyaq!", "Könüllü qonşu" və "Könüllü donor" aksiyaları barədə məlumat verildi. Fəaliyyətin daha çevik və səmərəli təşkili, mərkəzin işində iştirak edən təşkilat və hərəkatların xidmətlərinin əlaqələndirilməsi və genişləndirilməsi üzrə fikir mübadiləsi aparıldı.

Bildirildi ki, mərkəzin təşkilatçılığı ilə keçirilən aksiyalar çərçivəsində könüllülər tənha yaşlılara, aztəminatlı ailələrə baş çəkir, onların zəruri ehtiyaclarının ödənilməsində kömək göstərir, həmçinin qanvermə aksiyasında fəal iştirak edirlər. Qısa zamanda mərkəz tərəfindən respublikanın demək olar ki, bütün şəhər və rayonlarında könüllülər səfərbər olunub, onların əlaqələndirilməsi və lazımi fəaliyyətlərə yönləndirilməsi həyata keçirilib.

"Böyüklərimizi qoruyaq!" devizi altında paytaxt və regionlarda könüllülər minlərlə şəhid ailələrinin, fiziki məhdudiyyəti olan şəxslərin, Böyük Vətən müharibəsi iştirakçılarının evlərinə baş çəkərək onlara müxtəlif ərzaq və gündəlik tələbat məhsullarından ibarət bağlamaların çatdırılmasında kömə göstəriblər. Ümumilikdə, ölkəmizin 28 şəhər və rayonunda minə yaxın könüllü fəaliyyətə cəlb olunaraq, həssas kateqoriyalı 6254 ailəyə dəstək göstərilməsində iştirak edib.

Aprelin 6-dan başlayan "Könüllü qonşu" aksiyası çərçivəsində isə 44 şəhər və rayonda könüllülər tərəfindən məhəllə və binaların girişində xüsusi elanlar vasitəsilə əlaqə nömrələri paylaşılıb, ehtiyacı olan şəxslər barədə məlumat verilməsi xahiş edilib. Bu nömrələrə daxil olan zənglər əsasında könüllülər vətəndaşların öz vəsaiti hesabına gündəlik ərzaq məhsullarının, dərman vasitələrinin, bankomatlardan pensiyaların alınmasına və kommunal ödənişlərin həyata keçirilməsinədək bütün zəruri köməklikləri əsirgəməyiblər.

Digər bir layihə də ölkədə qan qıtlığı səbəbindən talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən, təcili əməliyyata və bununla əlaqədar qana ehtiyacı olan şəxslərin həyatı üçün yaranan təhlükənin aradan qaldırılmasında könüllülərin iştirakı ilə bağlı olub. Aprelin 8-də mərkəz Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankı ilə birlikdə "Könüllü donor" aksiyasına start verib. Bu nəcib aksiyada könüllülər Qan Bankının paytaxtda və regionlardakı bölmələrində qanvermədə də fəallıq göstəriblər.

Könüllülüyün, həqiqətən də, könül işi olduğunu sübut edən gənclərin fəaliyyəti, əlbəttə, bununla yekunlaşmır. Əhali arasında pandemiya ilə bağlı maarifləndirmə işlərinin aparılması, küçədə maskasız gəzən şəxslərə tibbi maskaların paylanması, həmçinin günümüzün qəhrəmanları olan polis və tibb işçilərinə könüllülər adından təşəkkür mesajlarının çatdırılmasında böyük həvəslə iştirak edən könüllülərin özləri də zəruri texniki təchizat və ləvazimatlarla, gigiyena vasitələri ilə təmin olunur və müvafiq təhlükəsizlik qaydaları ilə bağlı təlimatlandırılırlar.

Ölkəmizdə könüllüləri birləşdirən və onların fəaliyyətlərini tənzimləyən katiblik funksiyası Azərbaycan Respublikasının Gənclər Fonduna həvalə edilmiş Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzidir. Onun idarə olunması "ASAN Könüllüləri" Gənclər Təşkilatı, "Regional İnkişaf" İctimai Birliyi, "BİR Tələbə-Könüllü" Proqramı, "Könüllü DOST" Proqramı, "Aqrar İnkişaf Könüllüləri" İctimai Birliyi, "Nəqliyyat Könüllüləri" Proqramı, Bakı Şəhər Halqası Könüllüləri, "Miqrasiya Könüllüsü" İctimai Birliyi, "Könüllü gömrükçü" Dəstəsi, "Turizm Könüllüləri" İctimai Birliyi, "Diplomatiya Könüllüləri" Qrupu, "Ekokönüllüləri" Qrupu, "Azərbaycan Diaspor Könüllüləri" Proqramı, "SƏLİS Könüllüləri" İctimai Birliyi, "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi, "AFFA və Avro-2020" Könüllülər Proqramı və "Gənc Könüllülər" Hərəkatı tərəfindən həyata keçirilir.

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● Xoşməramlı fəaliyyət

# Ən böyük mükafat böyüklərin xeyir-duasıdır



**Bu gün nəinki Azərbaycan gəncliyini, bütün dünya xalqlarını həyəcan və təşviş içərisində saxlayan, karantin rejiminə uyğunlaşmağa vadar edən koronavirus pandemiyasının yayılmasının qarşısının alınması üçün dövlət başçısının çağırışlarına səs verərək, könüllülük prinsipi əsasında sosial yardımların göstərilməsində fəal iştirak etdiyim üçün böyük qürur hissi duyuram.**

Düşünürəm ki, hər bir gənc bu anlarda dövlətinə, xalqına dəstək olmalıdır. Cənab Prezident tərəfindən başladılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna yardım kampaniyasına və digər aksiyalara mən də qoşularaq öz dəstəyimi göstərdim.

Pandemiya dövründə Yasamal rayonu ərazisindəki aztəminatlı, tənha, köməyə ehtiyacı olan yaşlı, ahıl insanların yaşadığı ailələrə baş çəkərək yardım paylarını təqdim edir, onlara sosial xidmətlər göstərir, həmçinin bu insanların sağlamlığının qorunması məqsədilə xəstəlikdən mühafizə üsullarını izah edirəm.

Məncə, hər bir gəncin özündən yaşca böyük olan insanların, bilavasitə ağsaqqal və ağbirçəklərimizin qayğısına qalması vacib mənəvi dəyərlərdəndir. Axı onların varlığı bizim milli mənəvi dəyərlərimizin sütunudur. Bir zaman əlimizdən tutub, uşaq dili ilə bizlə danışıb üzümüzü güldürən, sevindirən, öz sevgi və qayğısını əsirgəməyən nənə və babalarımıza təmənnasız xidmət etməliyik. Həmçinin onlara həmin sevgini göstərməli və xidmətdən qürur duymalıyıq. Tənha, yaşlı, ehtiyacı olan insanlara kömək olmaq, əvəzində onların xeyir-dualarını almaq biz könüllülər üçün ən böyük mükafat olur!

*Rəşadət XALIQOV, Bakı Dövlət Universitetinin Tarix fakültəsinin məzunu, YAP Yasamal könüllü hərəkatının fəalı*

# Biz tibb işçiləri də Prezidentimizin çağırışlarına könüllü qoşulmuşuq



**Dünya gündəmini zəbt edən koronavirus pandemiyasına qarşı mübarizədə ölkəmizin ön sıralarda olması heç də təsadüfi deyil. Artıq bilirik ki, ən inkişaf etmiş ölkələr də bu pandemiyanın qarşısında az qala aciz qalıblar. Ona görə də mübarizədə çətinlik çəkirlər. Şükürlər olsun ki, ölkəmizdə bu virusa qarşı mübarizədə vəziyyət nəzarət altındadır.**

Bu da ondan irəli gəldi ki, ilk günlərdən dövlət başçısı qabaqlayıcı tədbirlər üçün xalqa müraciət etdi və yoluxmaların geniş yayılmaması naminə bütün zəruri tədbirlər görüldü. Əhalimiz, ümumiyyətlə, geniş ictimaiyyət pandemiyaya qarşı mübarizədə səfərbərliyə alındı. Burada xalqla hakimiyyətin birliyi özünü daha yaxşı göstərdi.

Azərbaycan Prezidentinin "Biz birlikdə güclüyük!" və "Evdə qal!" kimi vacib çağırışlarına bütünlüklə xalq dərhal reaksiya verdi. Bu işdə könüllülərimizin də üzərinə çox böyük və məsuliyyətli işlər düşdü. Peşəsindən, təhsilindən asılı olmayaraq, pandemiyanın daha geniş yayılmaması üçün istər təbliğat, istərsə də sosial yardımların ünvanlara çatdırılmasında könüllü xidmət göstərənlərin əməyi ən yüksək qiymətə layiqdir. Ona görə də həyatını və fəaliyyətini xalqının sağlamlığının keşiyində durmağa həsr edən bir tibb bacısı kimi onlara təşəkkür edir, minnətdarlığımı bildirirəm. Bu gün həkimlərimizin də arasında belə könüllülər az deyil.

ATU-nun tələbələrinin isə bu xidmətdə yaxından iştirakı təbiidir. Onlar Hippokrat andına sadiqliyi həm də könüllülük prinsipləri əsasında yerinə yetirməyə çalışırlar. Bakı Şəhəri Təcili Yardım Stansiyası 2 saylı Köməkçi Yardım Stansiyasının da istər həkim, istər tibb bacısı, istərsə də texniki heyəti pandemiya ilə mübarizədə bu gün ön cəbhədə döyüşən əsgər kimidirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəfələrlə xalqa müraciəti bir səhiyyə işçisi kimi məni həm sevindirib, həm də qürur duymuşam ki, dövlətimizin vətəndaş qayğısına qalan, onun sağlamlığını hər şeydən üstün tutan belə humanist başçısı var. Ölkəmizin birinci xanımı Mehriban Əliyeva müraciətində qeyd edir ki, səhiyyə sistemi qısa müddət ərzində təhlükəli epidemiyaya qarşı effektiv müqavimət strategiyası işləyib hazırladı: "Şəhərlərin və kəndlərin həyat təminatı obyektlərinin işçiləri təxirəsalınmaz məsələləri həll edirdilər. Kiçik və orta biznesə dəstək, habelə əhaliyə sosial yardım məqsədilə dövlət tərəfindən dəyəri 3 milyard manatdan çox olan proqram paketləri hazırlanıb həyata keçirilir. Bir sözlə, vaxtında görülmüş və düşünülmüş tədbirlər sayəsində ölkəmiz özünü, həqiqətən də, faciəli ssenaridən qurtara bildi..."

Bu çətin karantin günlərində insanlarımıza qarşı mərhəmətli və qayğıkeş olan könüllülərimiz də tənha yaşayan, qayğıya ehtiyacı olanlara, xəstə insanlara dəstək verməyə və yardım göstərməyə çalışırlar. Buna görə də ianələr edən və bu sahədə könüllü çalışaraq həmin əmanətləri ehtiyac sahiblərinə çatdıran könüllülərimizin hər birinə təşəkkür edirik.

Əlbəttə, ən əsası bu ərzaqların təhlükəsizlik qaydalarına riayət edərək ailələrə çatdırılmasıdır. Bu, böyük məsuliyyətdir. Həmin məsuliyyəti öz üzərinə götürən böyük bir könüllülər ordusu var ki, gecə-gündüz çalışır: ailələrə bir-bir gedərək onların sevincinə səbəb olurlar. Könüllü gənclər ilk günlərdən humanitar aksiyalara qoşulublar.

*Leyla ABDULLAYEVA, Bakı Şəhəri Təcili Tibbi Yardım Stansiyası 2 saylı köməkçi yardım stansiyasının tibb bacısı*

● Tribuna

# Beynəlxalq birlik tərəfindən örnək kimi təbliğ edilən hərəkat



**Dünya yaranandan bəri bir çox təbii fəlakətlərlə, böyük itkilərlə nəticələnən müharibələrə məruz qalmışdır. Lakin insanlıq bütün bu ağır zamanlara sinə gərmiş, hər cür çətinliklərdən qalib çıxmışdır.**

Son aylarda dünyanı bürümüş ağır və mürəkkəb günlər, koronavirus pandemiyası Azərbaycandan da yan keçmədi. Ölkəmizdə COVID-19 pandemiyası ilə əlaqədar görülən işlər həyati əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqımıza müraciətləri cavabsız qalmadı. Xalqımız bunu nəzərə alaraq "Evdə qal!" çağırışına layiqincə əməl etdi. Ölkə Prezidentinin uzaqgörən siyasəti sayəsində Azərbaycanda pandemiyanın geniş yayılmasına qarşı qısa zamanda reaksiya göstərildi: Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, ölkə ərazisində xüsusi karantin rejimi elan edildi. Bakıda inşa olunmuş "Yeni klinika" xəstəxanasının koronavirus xəstələrinin müalicə olunması üçün istifadəyə verilməsi, eyni zamanda Sumqayıt şəhərində tibbi maskaların və dezinfeksiya məhsullarının, o cümlədən kombinezonların istehsalı üçün inşası başa çatmış fabriklərin açılışı görülən çox mühüm tədbirlərdəndir.

Bu çətin günlərdə Prezident İlham Əliyevin çağırışlarına dəstək məqsədilə fəal könüllü gənclər də xeyriyyə aksiyalarına start verdilər. Onlar əhalinin həssas təbəqəsinə aid olan ailələrə və infeksiya səbəbilə evindən çıxa bilməyən yaşlı insanlara müntəzəm olaraq yardım edirlər. Könüllü gənclər çətinliklə üzləşən ailələrə ərzaq ehtiyaclarını ödəmək üçün yardım aksiyaları keçirirlər.

Bundan əlavə, mövcud vəziyyətlə əlaqədar qan qıtlığı səbəbindən Azərbaycanda talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkən, təcili əməliyyata ehtiyacı olan şəxslər üçün ölkənin aparıcı könüllü təşkilatları tərəfindən qanvermə aksiyalarına başlandı.

COVID-19 pandemiyasına qarşı mübarizədə də Azərbaycanı digər ölkələrdən fərqləndirən Prezident İlham Əliyevin uzaqgörən siyasətidir. Bu, beynəlxalq birlik tərəfindən də müsbət qarşılanır və örnək kimi təbliğ edilir.

*Orxan NURİYEV, Azərbaycan Texniki Universitetinin tələbəsi*

● "Könüllü DOST" proqramı

# Məqsəd - cəmiyyətə, dövlətə faydalı olmaqdır

**Sosial müdafiə sahəsinin inkişafı hər zaman dövlətin diqqət mərkəzində olan məsələlərdəndir. Bu istiqamətdə həyata keçirilən islahatlar vətəndaşların rifahının daha da yaxşılaşdırılmasına, onlar üçün yüksək səviyyəli həyat şəraitinin yaradılmasına xidmət edir.**






Ötən ilin may ayında fəaliyyətə başlayan 1 saylı DOST mərkəzi, həmçinin dekabrda yaradılan 2 saylı DOST mərkəzində hər gün yüzlərlə vətəndaşa məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 132 növdə xidmət təklif olunur. Bu günə qədər 100 mindən çox vətəndaşa xidmət göstərilən mərkəzlərdə əhalinin məmnunluq səviyyəsi 96 faizdir.

Hazırda DOST mərkəzlərində "Könüllü DOST" proqramı üzrə 100-ə yaxın könüllü fəaliyyət göstərir. Onlar burada vətəndaşların qarşılanması və xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının, növbələrin idarə edilməsi, müraciət edənlərin məlumatlandırılması, elektron sistemlərdən istifadə üzrə köməklik, xidmət üzrə sənədlərin siyahısı ilə insanların tanış edilməsi, müxtəlif anket, forma və s. doldurulmasında yardımlar göstərir, əlillərə xüsusi diqqət və qayğı ilə yanaşır, rəy sorğularının keçirilməsi və bir çox başqa işləri yerinə yetirirlər. Əksəriyyəti tələbə olan könüllülər gündəlik olaraq 3 saat fəaliyyət göstərirlər. İki ayın yekununda onlar məzun olur və daha sonra mərkəzə yeni könüllülərin seçimi başlayır.

"Könüllü DOST" proqramı fərqli ictimai və yaş təbəqələrini əhatə edən bir neçə altproqramdan ibarətdir. Məsələn, "Gənc DOST" altproqramı 16-29 yaş aralığında olan gənclərin, o cümlədən əlilliyi olan şəxslərin vətəndaşlara xidmət sahəsində təcrübə qazanması, ilkin işgüzar vərdişlər əldə etməsi, fərdi inkişaf və karyera yolunda ilk uğurlu addımlarının təməlinin qoyulması məqsədini daşıyır. Könüllülük fəaliyyətinin müddəti iki aydır və iş prosesi gündə üç saat olmaqla üç növbədə təşkil olunur. "Gümüşü DOST" altproqramı isə pensiyaçıların cəmiyyətə reinteqrasiyası, nəsillərarası təcrübə və bilik mübadiləsi, yaşlı şəxslərin asudə vaxtının aktiv təşkili istiqamətində icra olunur. Könüllülük fəaliyyətinin müddəti iki aydır və iş prosesi həftənin iş günləri hər növbədə dörd saat olmaqla iki növbədə təşkil olunur.

"Virtual DOST" altproqramı təhsil, təlim, tədqiqat, PR, konsaltinq və s. sahələr üzrə verilən tapşırıqların onlayn qaydada könüllülər tərəfindən yerinə yetirilməsidir. Bu altproqram əsasında müvafiq sahələr üzrə peşəkar mütəxəssislər, habelə əlilliyi olan şəxslər kompüter, planşet və ya smartfondan istifadə etməklə ofis və ya evlərində könüllü kimi fəaliyyət göstərmək imkanına malik olurlar. "Korporativ DOST" altproqramı da insanlar arasında xüsusi maraq doğurur. Cəmiyyətdə ictimai-sosial məsuliyyət hissinin artırılması, müxtəlif təşkilatların korporativ sosial məsuliyyətlilik proqramlarının daha effektiv formada təşkili və bu məqsədlə təşəbbüslərin qarşılıqlı əməkdaşlıq çərçivəsində ehtiyac olan sahələr üzrə istiqamətləndirilməsinə yönəldilib.

Fəaliyyəti müddətində seçilən könüllülərə DOST Agentliyi tərəfindən müxtəlif vəzifələr təklif olunur. Artıq agentliyin qiymətləndirmə mexanizmi də formalaşıb. Yəni könüllülərin gündəlik fəaliyyətləri dəyərləndirilir. Sonda isə hər dəfə məzun olan könüllülər 3 komandaya bölünür və onlara qrup layihəsi təqdim etmək imkanı verilir. Bu layihələr pensiya, əlillik və ya ekoloji sahələri əhatə edə bilər. Onlar öz layihələrini hazırlayıb təqdim edirlər. Bununla bağlı agentliyin 3 səviyyə üzrə sertifikatlarının verilməsi də nəzərdə tutulub.

Qeyd edək ki, DOST mərkəzlərində "Könüllü DOST" proqramına indiyədək 10 minədək müraciət olunub və ötən dövrdə bu proqram üzrə 300-dək könüllü mərkəzlərə cəlb edilib. Bu proqramın məzunlarından artıq 17 nəfər agentliyin və DOST-un əməkdaşları kimi fəaliyyətlərini davam etdirirlər.

Könüllülük hərəkatının inkişaf etdirilməsi və könüllülərlə işin davamlı və sistemli aparılması üçün fəaliyyətində dövlətçilik, vətənpərvərlik, innovativlik, yaradıcılıq, operativlik və əməkdaşlıq prinsiplərini rəhbər tutan "Könüllü DOST" təşkilatının yaradılması planlaşdırılır. DOST könüllülərinin bilik və bacarıqlarının artırılması, onların asudə vaxtlarının səmərəli keçirilməsi və s. istiqamətdə agentlik tərəfindən müxtəlif tədbirlər də təşkil olunur.

Bütün dünyada geniş vüsət alan COVID-19 epidemiyasının sürətlə yayılmasının qarşısının alınmasında DOST könüllüləri daha yaxından iştirak edirlər. Onlar daim sosial xidmətçilərlə birgə tənha yaşlı vətəndaşlara tez-tez baş çəkir, onların istəkləri ilə maraqlanır və müvafiq istiqamətdə müxtəlif yardım aksiyalarında fəallıq göstərirlər.

Dövlətimizin diqqətindən qaynaqlanaraq milli ruhda tərbiyə alan, xalqımızın maraqlarını layiqincə qoruyan gənc nəslin və pandemiya dövründə geniş vüsət almış könüllülər hərəkatının fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Bu, cəmiyyətdə xeyirxahlıq və yeni davranış qaydaları təbliğ edir.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

# Biz birlikdə güclüyük!



**İnsanların sağlamlığı ətraf mühitlə, havanın təmizliyi, suyun saflığı, qidanın keyfiyyəti ilə birbaşa bağlıdır. Odur ki, Azərbaycanda xüsusilə son illərdə ekoloji vəziyyətin yaxşılaşdırılmasına böyük diqqət göstərilir. O cümlədən yeni yaşıllıq zolaqları, meşə massivləri salınır, mövcud yaşıllıq sahələri daha da genişləndirilir.**

## Yaşıllıqlar insan sağlamlığına xidmət edir

### Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətində ekoloji məsələlərin öz yeri var

Bu il mayın 10-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkmələri ətraf mühitə həssas münasibətin daha bir nümunəsi idi.

Ağacların məhz Ulu Öndər Heydər Əliyevin doğum günü əkilməsi təsadüfi deyil. Çünki ölkəmizdə ekoloji siyasətin əsası Ümummilli Lider tərəfindən qoyulub. Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib. Bu siyasətin uğurlu davamı olaraq hazırda Azərbaycanda ekoloji məsələlərin həllinə xüsusi diqqət göstərilir, ətraf mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr həyata keçirilir.

İndiyədək neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün genişmiqyaslı işlər görülüb, uğurlu layihələr reallaşdırılıb. Bu da ekologiyaya dövlət səviyyəsində xüsusi diqqətlə yanaşıldığının nəticəsidir.

Keçmiş yod-brom zavodunun Suraxanı rayonu ərazisindəki tullantı poliqonu bir çox paytaxt sakinlərinin yaxşı yadındadır. Abşeron yarımadasında ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən biri də məhz təhlükəli tullantılarla çirkləndirilmiş bu ərazinin təmizlənməsi oldu. Görülən işlər nəticəsində indi burada ekoloji vəziyyət normalara tam uyğunlaşdırılıb.

Layihənin 2018-2019-cu illəri əhatə edən birinci mərhələsində 67 hektar ərazi yod-brom və digər neft tullantılarından təmizləndi. Ərazidəki drenaj və suvarma sistemləri quruduldu. Həmin yerdə 52 mindən çox müxtəlif növ ağac-kol tingləri əkilərək geniş meşə-park salındı.

Hazırda ərazinin qalan 100 hektarlıq sahəsində layihənin ikinci mərhələsi həyata keçirilir. Bu il təmizlənmiş ərazilərdə Abşeron iqliminə uyğunlaşdırılmış Eldar şamı, Avropa zeytunu, həmişəyaşıl sərv, Arizona sərvi, digər ağac və kol növləri, ümumilikdə 82 min tingin əkilməsi nəzərdə tutulur.

Ekoloji layihələr təkcə paytaxtı deyil, ölkəmizin digər şəhər və rayonlarını da əhatə edir. Bu baxımdan Sumqayıt şəhərində ətraf mühitlə bağlı görülən işlər mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyev bu ilin aprel ayında Ağdərə-Sumqayıt magistral qaz kəmərinin istifadəyə verilməsi, eləcə də may ayında Sumqayıtda "Gilan Tekstil Park" MMC-nin tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılış mərasimlərində həmin məsələyə toxunmuşdur.

Dövlət başçısı vaxtilə Sumqayıtın böyük bir ekoloji bəla mərkəzi olduğunu xatırlatmışdır. Kimya sənayesinin sürətli inkişafı və bir çox hallarda ekoloji standartlara riayət edilməməsi nəticəsində Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi və burada bir neçə növ xəstəliklər geniş vüsət almışdı. Bu gün isə Sumqayıt təmiz, müasir sənaye mərkəzinə çevrilib və bu şəhərdə hava Bakıda olduğundan daha təmizdir. Sumqayıtda aparılan yaşıllaşdırma işləri, yeni parkların salınması, uzun illər şəhər sakinlərini narahat edən Acıdərə kanalının tamamilə təmizlənməsi və digər ekoloji tədbirlərin görülməsi öz müsbət nəticəsini göstərib.

Prezident bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək dəyərləndirib: "Sumqayıt yaradılanda Sovet İttifaqının kimya sənayesinin mərkəzi kimi nəzərdə tutulurdu və bu funksiyanı yerinə yetirirdi. Ancaq sumqayıtlılar yaxşı bilirlər ki, ekoloji vəziyyətə çox böyük zərbə vurulmuşdu. Sumqayıt ekoloji fəlakət zonası idi və Sovet İttifaqı məkanında bəlkə də ekoloji baxımdan ən çirklənmiş şəhərlərdən biri idi. Bu gün isə Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərlərindən biridir. Çünki burada yaradılmış bütün yeni müəssisələr ekoloji normalara tam cavab verir. Köhnə müəssisələr artıq bağlanıb, onların əraziləri yeni sənaye parklarının sərəncamına verilib. Bu gün Sumqayıtda təmiz hava artıq adi hala çevrilib".

Qeyd etmək vacibdir ki, ölkəmizdə ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mühüm töhfələr verir. Birinci vitse-prezidentin təşəbbüsü ilə keçən il mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi ümumilikdə Azərbaycanın ekoloji durumuna çox müsbət təsir göstərmiş, yaşıllıq zolaqlarının miqyasının artmasına səbəb olmuşdur. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də xüsusi əhəmiyyət daşıyır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Yeni formatda təhlükəsiz istirahət

### Hotel və turizm obyektlərində koronavirusun idarə olunması

Qlobal pandemiya nəticəsində ən çox zərər görən sahələrdən biri də turizm oldu. Belə demək mümkündürsə koronavirus (COVID-19) infeksiyası səbəbindən sərhədlərin bağlanması, karantin rejiminin tətbiqi, sosial izolyasiyanın tələbləri bu sektoru tamamilə çökdürüb və bütün ölkələrdə böhrandan çıxış yolları axtarılır.

Mütəxəssislər hotellərdə və turizm obyektlərində insanların sağlamlığını təhlükəyə atmadan necə xidmət göstəriləcəyi ilə bağlı yeni qaydalar müəyyənləşdirirlər.

Azərbaycanda da Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) turizm və hotelçilik sektorunda koronavirus infeksiyasının idarə olunmasına dair metodiki göstərişlər hazırlayıb.

Araşdırmalara əsasən COVID-19 infeksiyası insanlar arasında birbaşa hava-damcı yolu ilə və ya dolayı yolla kontaminasiya olunmuş səthlərə təmas etdikdən sonra əllərlə ağız boşluğuna, gözlərə, buruna və s. toxunduqda ötürülür.

İnsanların sıx toplandığı digər ictimai yerlərdə olduğu kimi, hotellərdə və turizm müəssisələrində yoluxma ehtimalı yüksəkdir. Burada qonaqlar müvəqqəti olaraq yaxın məskunlaşma şəraitində yaşayırlar, öz aralarında və işçilərlə sıx qarşılıqlı münasibətdə olurlar.

Məhz bu cəhətlər, yeni qonaqların məskunlaşması ilə bağlı onlara göstərilən xidmətlər (yemək, içki, təmizlik, hər hansı bir fəaliyyətin təşkili və s.) və bu müəssisələrə xas olan qarşılıqlı münasibətlər (qonaq-qonaq, qonaq-işçi heyəti və işçi heyətin öz arasında) xüsusi diqqət tələb edir.

#### COVID-19-a yoluxma halları olmadıqda belə…

Müəssisənin hər bir heyət üzvü Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən verilən COVID-19-a qarşı əsas müdafiə tədbirlərinə, (əl gigiyenası, sosial məsafənin saxlanması, gözlərə, burun və ağıza toxunmamaq, tənəffüs gigiyenasına riayət etmək) və xəstəliyə uyğun simptomlar varsa evdə qalaraq, tibbi yardım üçün müraciət etmək kimi tövsiyələrinə xüsusi diqqət yetirməlidir.

Hotellərdə və turizm müəssisələrində COVID-19-a yoluxma halları olmadıqda belə gigiyena qaydalarının tətbiqinin genişləndirilməsi tövsiyə olunur. İctimai yerlərin dezinfeksiyasına xüsusi diqqət yetirilməlidir, məsələn, tutacaqlar, lift düymələri, sürahilər və s. Təmizlik heyəti müvafiq qaydada təlimatlandırılmalıdır.

Bufetlərdə qonaqlar qida məhsullarına əl ilə toxunmaqdan çəkinməlidirlər. Zərurət yaranarsa servis əşyaları istifadə olunduqca tez-tez dəyişdirilməlidir və bu əşyalar ayrı konteynerdə saxlanmalıdır. Xidmətdən sonra bufet səthləri təmizlənməli və dezinfeksiya edilməlidir. Qəhvə və s. avadanlıqlara mütəmadi olaraq əl ilə toxunulur. Bu səbəbdən də həmin avadanlıqlar hər istifadədən sonra və zərurət olduqda daha tez-tez təmizlənib dezinfeksiya edilməlidir.

On kvadratmetr ərazidə ən çox 4 nəfərin olması tövsiyə olunur. Ərazidə oturacaqların ara məsafəsi 1 metrdən, masaların arasındakı məsafə 2 metrdən az olmamalıdır.

#### Hotellərdə uşaq əyləncə bölməsi

Uşaqlarda COVID-19-a yoluxma hallarının geniş yayılmamasına baxmayaraq, faktlar göstərir ki, onların arasında ağır gedişatlı və ölüm ilə nəticələnən hallar müşahidə edilir. Həmin zonada məsul əməkdaş diqqətli olmalı, soyuqdəymə simptomu müşahidə etdiyi təqdirdə dərhal həmin uşağın valideynləri ilə əlaqə saxlamalı və situasiya ilə əlaqəli idarəetməni icra etməyi bacarmalıdır. Belə hallarda ərazi müvəqqəti bağlanmalıdır və orada dərin dezinfeksiya işləri icra olunmalıdır.

Hər müəssisənin təmizləmə və dezinfeksiya planı tərtib olunmalıdır. Qonaqlar və personal sırasından COVID-19-a yoluxma şübhəsi ilə xəstəxanaya təxliyə edilən şəxsin yaşayış zonası həmin plana uyğun təmizlənməli və dezinfeksiya edilməlidir. Qaydalara əsasən təmizlik personalı müvafiq fərdi qoruyucu vasitələrdən istifadə etməlidir.

Metodiki göstərişlərdə qeyd olunub ki, xəstənin otağının təmizlənməsi zamanı əlcəklər və tibbi maska istifadə edilməlidir: "Tənəffüs sekresiyaları və ya bədən mayeləri ilə çirklənmə halında bütün səthlər 1:100 normal durulaşdırılmış ağardıcı ilə təmizlənməli (natrium hipoxlorid), əhəmiyyətli dərəcədə çirklənmə olduqda isə 1:10 normal durulaşdırma ilə hazırlanmış ağardıcıdan istifadə edilməlidir. 1/100 nisbətində ağardıcı əldə etmək üçün praktik olaraq 10 litr suya 1 kiçik çay stəkanı qədər ağardıcı əlavə etmək lazımdır. Ağardıcıdan istifadə etmək mümkün olmadığı təqdirdə (məsələn, telefon, uzaqdan idarəetmə pultları, lift düyməsi və s.) 70 faiz spirt məhlulu istifadə edilə bilər.

#### Bütün otaq və ictimai ərazilər gündəlik havalandırılmalıdır

İstifadə edilən paltar, döşək üzləri, yataq örtükləri dəsmalları və s. camaşırlar birdəfəlik istifadə üçün nəzərdə tutulmuş, ağzı sıx bağlanan polietilen paketlərə yerləşdirilməlidir. Şübhəli şəxsin istifadə etdiyi paltar, dəsmal, yataq örtüyü kimi tekstil məhsulları 60-90° C-də yuyucu toz ilə yuyulmalıdır.

Həmçinin bildirilib ki, birdəfəlik əşyalar qapaqlı konteynerə yerləşdirilməli və tibbi tullantıların idarə edilməsi qaydalarına uyğun utilizasiya olunmalıdır.

Təmizlik işləri görən heyət fərdi qoruyucu vasitələrdən istifadə qaydalarına dair təlimlər keçməlidir və vasitənin istifadəsindən sonra gigiyena qaydalarına dair təlimatlandırılmalıdır.

Bütün otaq və ictimai ərazilər gündəlik havalandırılmalıdır.

#### Xəstə qonaqların monitorinqi

Xəstə qonaqların monitorinqinə gəldikdə isə, təmizləyici personal hər hansı bir otaqda xəstə insan aşkarladıqda, dərhal qeydiyyat əməkdaşlarına məlumat verməlidir. Əldə olunan məlumatların məxfiliyi təmin olunmalıdır.

Aşağıda qeyd olunan fərdi qoruyucu vasitələrlə əməkdaşlar təmin olunmalı və onların istifadəsinə dair təlimatlandırılmalıdırlar:

- Əlcəklər;
- Birdəfəlik xalatlar;
- Qapalı ayaqqabı;
- Sipərlik.

Onlar həmçinin lazım ola biləcək dezinfeksiyaedici məhlullarla da təmin olunmalıdırlar.

#### Hotellərdə açıq bufetlər ləğv olunacaq

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının məlumatına əsasən, müştəri hoteli tərk etdikdən sonra həmin otağa 48 saat müddətində heç kəs buraxılmayacaq. Bu müddət başa çatdıqdan sonra nömrə təmizlənib yeni müştərilərin istifadəsinə veriləcək. Qeyd olunub ki, müştəri hotelə daxil olarkən xüsusi avadanlıqla hərarəti ölçüləcək. Müştəri ilə hotel personalı arasında sosial məsafənin saxlanılması təmin olunacaq. Daha bir yenilik isə açıq bufetlərin ləğv olunması, masalar arasında minimum 2 metr məsafənin saxlanılması və sifarişlərin fərdi şəkildə hotel personalı tərəfindən qəbul olunmasıdır. Artıq bunun üçün işçi personalına xüsusi təlimlər də keçirilib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycanda koronavirusla bağlı vəziyyət tam nəzarətdədir

### Bundan sonra məsuliyyətli davranaraq sağlamlığını qorumaq hər kəsin öz əlindədir

**Yer kürəsinin hər yerində tüğyan edən yeni tip koronavirusun, COVID-19-un yayılmasının qarşısının alınması üçün aylardır mübarizə aparılır. Ölkələr çoxsaylı tədbirlər görür, virusun təsirinin azaldılması məqsədilə addımlar atırlar. Bəzi ölkələr bu addımları atmaqda geciksələr də, vaxtında zəruri və səmərəli tədbirlər həyata keçirən dövlətlər də var. Nəticə də özünü göstərir. Artıq bəzi ölkələrdə gözəgörünməz düşmən üzərində qələbə çalmaq mümkün olub.**

Bir sıra ölkələrdə isə virusun törətdiyi fəsadların minimuma endirildiyi nəzərə alınaraq tətbiq olunmuş karantin tədbirləri mərhələ-mərhələ, planlı şəkildə yumşaldılır. Koronavirusdan ən çox əziyyət çəkmiş ölkələr də bu istiqaməti əsas götürürlər. Baxmayaraq ki, mütəxəssislər koronavirus epidemiyasının ikinci dalğasının gələcəyinə, hətta bu bəlanın bəşəriyyətlə daim yaşayacağına dair xəbərdarlıqlar edirlər.

Pandemiyanın hansı tempdə davam edəcəyinə baxmayaraq, karantin rejiminin yumşaldılması, bir sıra məhdudiyyətlərin aradan qaldırılması qaçılmazdır. Çünki dünya iqtisadiyyatı çöküb və bu da cəmiyyətin gələcəyi üçün belə davam edə bilməz. Digər tərəfdən, insanları davamlı olaraq evdə təcrid vəziyyətində saxlamaq olmaz: bu, həm insanların sağlamlığına ziyandır, həm də müəyyən psixoloji problemlər yarada bilər. Odur ki, bütün dünya ölkələri xüsusi rejimli karantinin yumşaldılmasına başlayıb. Təbii ki, bütün dünyada pandemiyanın davam etdiyi vəziyyətdə karantin tədbirlərini bütünlüklə ləğv etmək təhlükəlidir və ciddi fəsadlar yarada bilər. Odur ki, ölkələr problemlərini daxildə həll etməyə və çətin durumdan çıxmağa çalışırlar.

#### Azərbaycan özünü dünyaya nümunəvi ölkə kimi təqdim edib

Azərbaycan hökumətinin də bu məsələ ilə bağlı sosial siyasəti məlumdur. Dövlət koronavirus pandemiyasına qarşı qəti tədbirlər həyata keçirir. Bu istiqamətdə görülən mühüm qabaqlayıcı və operativ işlər, məhdudlaşdırıcı tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa, sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa və pandemiyanın geniş vüsət almasının qarşısını almağa imkan verdi. Prezident İlham Əliyevin tapşırıqları və şəxsi nəzarəti ilə görülən müvafiq tədbirlər nəticəsində ölkədə pandemiya vəziyyəti nəzarət altına alındı, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının azaldılmasına nail olundu. Koronavirus Azərbaycanda genişmiqyaslı pandemiya şəklində yayılmadı. Virusa yoluxanların, dünyasını dəyişənlərin və sağalanların ümumi nisbətini götürsək, ölkədə pozitiv rəqəmlər mövcuddur. Bütün dünyadakı durumla müqayisə etdikdə bizdə itkilər minimal sayılır. Tədbirlərə başlandığı gündən indiyədək atılan addımların məqsədi insanların sağlamlığını təmin etmək və eyni zamanda bu bəladan minimum itkilərlə çıxmaqdır. Koronavirusla bağlı statistika da məqsədə nail olunduğunu, ölkəmizin qlobal pandemiyanın öhdəsindən bacarıqla gəldiyini aydın şəkildə göstərir.

Azərbaycan özünü dünyaya pandemiya ilə ən uğurlu mübarizə aparan nümunəvi ölkə kimi təqdim edib. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da ölkəmizdə koronavirusa qarşı atılan addımları, bu sahədə görülən işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. ÜST-ün Baş direktorunun dövlət başçısına məktub göndərməsi, ölkəmizin verdiyi dəstəyə görə təşəkkür etməsi, görülən işləri təqdir etməsi və dünya üçün Azərbaycan modelinin tətbiq edilməsinin nə qədər vacib olduğunu vurğulaması Prezident İlham Əliyevin bütün dünyada qəbul edilən nüfuzlu lider olduğunu təsdiqləyir.

Bəli, Azərbaycanda həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verir. Koronavirusla bağlı vəziyyət tam nəzarət altındadır. Elə ona görə də sanitar-epidemioloji vəziyyət, ölkə əhalisi arasında virusa yoluxanların ümumi sayı və xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlər növbəti dəfə yumşaldılıb.

#### Əsas məsuliyyət vətəndaşın öz üzərinə düşür

Lakin karantin rejiminin yumşaldılması insanların məsuliyyətini azaltmasına bəhanə olmamalıdır. Əksinə, bundan sonra əsas məsuliyyət məhz vətəndaşın öz üzərinə düşür. Artıq sağlamlığını qorumaq hər kəsin öz əlindədir. Bu baxımdan hamı məsuliyyətini dərk etməlidir. Təəssüf ki, son həftələrin rəqəmləri bunun əksini göstərir. Karantin rejimi yumşaldılandan sonra ölkəmizdə koronavirusa yoluxma sayı artıb. Bunun da səbəbi insanların nizam-intizamı pozmasıdır. Tətbiq olunan qadağaların ləğv edilməsi vətəndaşlarda virusun azaldığı və ya yoxa çıxdığı kimi düşüncə yaradıb. Halbuki virus yox olmayıb, var və yoluxmağa, can almağa davam edir. Amma nədənsə bəzi vətəndaşlar bunu gözardı edir, sosial məsafəni qorumur və maska taxmırlar.

"Azərbaycanda əhalinin neçə faizinin virusa yoluxmasından asılı olmayaraq, virusla mübarizənin yeni mərhələsində hər bir kəsin üzərinə düşən məsuliyyət daha da çoxalır. Bu mərhələdə hər kəsin, hətta həkimlərin də diqqət edəcəyi məsələlər birinci mərhələdən tam fərqlidir. Çünki artıq virus ilk mərhələdəki kimi yeni deyil. Bu mərhələdə ayrı-ayrı müəssisələrə, qurumlara və insanların toplaşdığı yerlərə xüsusi diqqət yetirilməlidir".

Bunu Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının tibb elmləri doktoru Nuran Abdullayev bildirib. Həkimin sözlərinə görə, virus əvvəlki kimi qalmaqda davam edir, sadəcə, ölkələrdə virusla mübarizə özünün fərqli mərhələsinə qədəm qoyub. Ona görə də bu, pandemiyanın yeni mərhələsi adlandırılır. Belə ki, mübarizənin ilkin mərhələsində məqsəd əhalini maarifləndirmək, bir-birindən uzaq durmalarını müəyyən qadağalarla təmin edərək yoluxma əmsalını aşağı salmaq və yeni virus növünü elmi olaraq öyrənmək idi: "Bəs ikinci mərhələdə insanlar nəyə diqqət yetirməlidirlər? Hər kəsin bilməsi vacib olan məsələlərdən biri də ondan ibarətdir ki, ikinci mərhələdə elmi olaraq virus haqqında bildiklərimizi praktiki olaraq tətbiq etməliyik. Məsələn, artıq məlumdur ki, virus hava və damcı üsulu ilə ötürülərkən burada vacib faktorlar aerozollardır. Aerozollar damcıdan da dəfələrlə kiçikdir ki, bunlar bəzən havada bir neçə saat da qala bilir. Bu da açılan restoran və kafelərin iş rejimində ciddi nəzərə alınmalıdır. Bundan başqa, bilirik ki, məsafənin saxlanılması və maskalardan istifadə əlləri təmiz saxlamaqdan daha da önəmlidir. İnsanlar bu kimi faktorları nəzərə alaraq qaydalara maksimum əməl etməlidirlər. Virusla mübarizənin bu mərhələsində təbii ki, dünyanın hər yerində yoluxma sayı artacaq və infeksiyanın hansı yaş qrupları arasında yayılması da ölüm sayına təsir edəcək. Ona görə də Azərbaycanda bu mərhələdə ayrı-ayrı müəssisələrə, qurumlara və insanların toplaşdığı yerlərə xüsusi diqqət yetirilməlidir".

N.Abdullayev bildirib ki, əgər tapşırılan gigiyenik tələblərə əməl olunmasa və virusa yoluxma baş verərsə, həmin qurumların və insanların toplaşdığı yerlər yenidən bağlanmalıdır. "Amma belə yoluxmaların olmasının ikinci dalğa adlandırılması düzgün deyil. Çünki bu kimi hallar dəfələrlə təkrarlana bilər ki, bütün elm adamlarının da narahat olduğu budur. Digər vacib amil isə Azərbaycanda yay bitənə qədər insanları bu vəziyyətdə maksimum maarifləndirməkdir. Əks-halda yaydan sonra hər il olan müəyyən qrip dalğası zamanı vəziyyət çox ciddi şəkildə pisləşə bilər. Məqsədlərdən biri də xüsusi risk qrupuna daxil olan insanları peyvənd tapılana qədər qorumaq olmalıdır. Hamı bilməlidir ki, yeni mübarizə mərhələsində virusun Azərbaycanda bu günə kimi nə qədər yayılmasından asılı olmayaraq, hər bir kəsin üzərinə düşən məsuliyyət daha da çoxalıb".

#### Qaydalara əməl edilmədikdə yoluxma sayı artır

Bəli, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən xüsusi rejimli karantin yumşaldılsa da, artıq şəxsi məsuliyyət ən yüksək səviyyədə dərk edilməlidir. Biz bu xəstəliyin qarşısını almaq, yoluxma faizini endirmək üçün nə etmək lazım olduğunu bilirik. İctimai məkanlardan, insanların toplaşdığı yerlərdən mümkün qədər uzaq durmaq, sosial məsafəni qorumaq və maska taxmaq lazımdır. Bu günə qədər bütün ölkələr yoluxmanın qarşısını almaq üçün sosial məsafənin qorunmasından, təcrid addımlarından istifadə edirlər. İnsanların məsuliyyətini dərk etməsi, sosial məsafəni qoruması, ehtiyac olmadığı hallarda evdən çıxmaması, tibbi maska taxması, şəxsi gigiyenasını gözləməsi, qaydalara laqeyd yanaşmaması yoluxma hallarının qarşısını almaq üçün olduqca vacibdir.

Dövlət üzərinə düşən bütün vəzifələri yerinə yetirib və xəstəxanalar tikilib, xarici ölkələrdən dərmanlar, tibbi vasitələr gətirilib. İndiki məqamda isə önə çıxan məsələ şəxsi məsuliyyətdir. İnsanlar başa düşməlidirlər ki, bu xəstəliyi tamamilə üstələməmişik. Həyat da, mübarizə də davam edir. Qaydalara nə qədər çox riayət edilirsə, yoluxma bir o qədər az qeydə alınır. Qaydalara əməl edilmədikdə isə yoluxmanın sayı artır. Karantin rejiminin yumşaldılması, məhdudiyyətlərin aradan qaldırılması əhalidə arxayınlıq və məsuliyyətsizlik yaratmamalıdır. Pandemiya başa çatmayıb və virus hələ qeyb olmayıb. Ona görə də hər bir kəs məsuliyyətli olmalı, nizam-intizama əməl etməli və özünü, yaxınlarını qorumalıdır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Əməliyyat təlimləri çərçivəsində qoşunlar start mövqelərinə çıxarılıb





Müdafiə naziri general-polkovnik Zakir Həsənov genişmiqyaslı əməliyyat-taktiki təlimlərində qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin qəbul edilən qərarlara dair məruzələrini dinləyib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir təlimdə iştirak edən qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə cəlb edilən qüvvə və vasitələrin ərazilərdə yerləşməsi başa çatıb. İdarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarında açılması, eləcə də raket və zenit artilleriya komplekslərinin ehtiyat atəş və start mövqelərini tutması başa çatdırılıb.

# XİN: "Qondarma "andiçmə" şousu Ermənistanın ilhaqçı siyasətinin növbəti bariz nümayişidir"

"Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində işğalçı Ermənistanın təşkil etdiyi qeyri-qanuni "seçkilər" və qondarma "andiçmə" şousu Ermənistanın ilhaqçı siyasətinin növbəti bariz nümayişidir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Azərbaycan Respublikasının Konstitusiyası, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə ziddiyyət təşkil edən və müvafiq olaraq, beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə rədd edilən qondarma "seçkilərin" nəticələrinin hər hansı bir hüquqi qüvvəsi yoxdur və ola da bilməz. Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş separatçı rejim təcavüzkar Ermənistanın Azərbaycana qarşı qeyri-qanuni güc tətbiqi, ərazilərinin beşdəbirinin işğalı, qanlı etnik təmizləmə və yüz minlərlə məcburi köçkünün fundamental hüquqlarının pozulmasının nəticəsidir.

Azərbaycan xalqının tarixi-mədəni irsində xüsusi əhəmiyyəti olan Şuşa şəhərində "andiçmə" adı altında təşkil edilən bu təxribatda təcavüzkar Ermənistanın baş nazirinin iştirakı, özünü "demokrat" kimi təqdim edən birinin demokratiya anlayışına qara ləkə sürməsindən başqa bir şey deyildir.

Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının hərbi işğalının davam etdiyi və Dağlıq Qarabağın azərbaycanlı əhalisinin zor gücünə didərgin salınaraq seçki hüquqlarından məhrum edildiyi bir şəraitdə hər hansı "seçki" və ya "andiçmədən" danışmaq hüquqa zidd olduğu qədər, heç bir sağlam məntiqə sığmır və beləliklə də, hamılıqla pislənir və rədd edilir.

Müharibə hələ bitməyib və Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpasını bütün mümkün vasitələrlə təmin etmək hüququna malikdir. Ermənistan rəhbərliyinin bu kimi təxribatçı fəaliyyəti münaqişənin sülh yolu ilə həlli cəhdlərini, demək olar ki, heçə endirməklə, bölgədə gələcək hərbi qarşıdurmanın və gərginliyin artmasına xidmət edir. Heç kəs şübhə etməsin ki, işğal olunmuş ərazilərimiz işğaldan azad olunacaq, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və məcburi köçkünlərin fundamental hüquqları təmin ediləcək".

# Mayın 31-i qısaldılmış iş günü olacaq

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Azərbaycan Respublikasının ərazisində iş və istirahət günlərinin yerinin dəyişdirilməsi və xüsusi karantin dövründə qeyri-iş günlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 may tarixli 177 nömrəli qərarının tətbiqi ilə əlaqədar izahat yayıb.**

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həmin qərara əsasən Ramazan bayramı və xüsusi karantin rejimi ilə əlaqədar olaraq iş və istirahət günlərinin ardıcıllığının təmin edilməsi məqsədilə həm beşgünlük, həm də altıgünlük iş həftəsində çalışanlar üçün 2020-ci ilin 23-30 may dövrü üçün bayram, istirahət və əməkhaqqı saxlanılmaqla qeyri-iş günləri müəyyən edilib.

Bununla əlaqədar olaraq əməkhaqqı ödənişlərinin düzgün aparılması üçün iş vaxtı tabellərində həmin günlər aşağıdakı kimi qeyd edilməlidir: əməkhaqlarının hesablanmasında dəyişdirilmir. Qərarla 2020-ci ilin 27 may iş günü ilə 31 may istirahət gününün yerləri dəyişdirildiyi və 27 may tarixi qısaldılmış iş günü olduğu üçün Qərarın 2.2-ci bəndi nəzərə alınmaqla 2020-ci ilin 31 may tarixi qısaldılmış iş günü olacaq.

Fasiləsiz xidmət sahələrində istehsalat zərurəti ilə əlaqədar olaraq beşgünlük və altıgünlük iş həftəsində çalışan işçilər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 may tarixli 177 nömrəli qərarı ilə müəyyən edilmiş qeyri-iş günlərində (29 may tarixi, habelə altıgünlük iş həftəsində çalışanlar üçün 23 və 30 may tarixləri) işə cəlb edildikdə xüsusi əmək (iş) rejiminin tətbiq edilməsi ilə əlaqədar olaraq, həm dövlət büdcədən maliyyələşdirilən, həm də özəl sektorda işləyənlərə həmin günlər üçün əlavə əməkhaqqının və ya istirahət gününün verilməsi nəzərdə tutulmur. Özəl sektorda həmin günlərə görə əlavə əməkhaqqının və ya istirahət gününün verilməsi məsələsinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7-ci maddəsinin 3-cü hissəsi rəhbər tutularaq işəgötürənin mülahizəsi əsasında əmək normalarının yaxşılaşdırılması halı olaraq baxıla bilər.

Növbəli iş rejimində çalışan işçilər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 may tarixli 177 nömrəli qərarı ilə müəyyən edilmiş qeyri-iş günlərində (29 may tarixi, habelə altıgünlük iş həftəsində çalışanlar üçün 23 və 30 may tarixləri) işlədikdə həm dövlət büdcəsindən maliyyələşdirilən, həm də özəl sektorda işləyənlərə həmin günlər üçün əlavə əməkhaqqının və ya istirahət gününün verilməsi nəzərdə tutulmur. Özəl sektorda həmin günlərə görə əlavə əməkhaqqının və ya istirahət gününün verilməsi məsələsinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7-ci maddəsinin 3-cü hissəsi rəhbər tutularaq işəgötürənin mülahizəsi əsasında əmək normalarının yaxşılaşdırılması halı olaraq baxıla bilər.

Xüsusi iş (əmək) rejimi ilə əlaqədar müəyyən edilmiş qeyri-iş günləri ilə əlaqədar nəzərə alınmalıdır ki, istehsalın, işin, xidmətin və əmək şəraitinin xarakterindən asılı olaraq tətbiq edilən bir istirahət günü olan altıgünlük iş həftəsi və müəyyən qeydiyyat (uçot) dövrü üçün növbə cədvəlləri beşgünlük iş həftəsinin həmin dövr üzrə iş vaxtı normasına riayət edilməklə tərtib olunur. İş vaxtının qeydiyyatı (uçotu) dövründə və ya təqvim ili ərzində iş vaxtı saatları iş vaxtı normasına uyğun gəlirsə, ayrı-ayrı aylarda iş vaxtının normal iş vaxtından az və ya çox işlənilməsi halları altıgünlük iş həftəsi cədvəlinə yenidən baxılması üçün əsas ola bilməz. İş vaxtının illik normasına görə altıgünlük iş həftəsi cədvəlinə il ərzində düzəliş edilməsi ilə bağlı konkret məsələlər istehsalat və digər yerli şərait nəzərə alınmaqla bilavasitə kollektiv müqavilədə nəzərdə tutulmaqla həll olunur.

| Tarixlər | Beşgünlük iş həftəsi | Altıgünlük iş həftəsi |
|---|---|---|
| 23 may | İstirahət günü | Ödənişli qeyri-iş günü *(xüsusi iş(əmək) rejimi ilə bağlı)* |
| 24 may | Bayram günü | Bayram günü |
| 25 may | Bayram günü | Bayram günü |
| 26 may | İstirahət günü | İstirahət günü |
| 27 may | İstirahət günü | İstirahət günü |
| 28 may | Bayram günü | Bayram günü |
| 29 may | Ödənişli qeyri-iş günü *(xüsusi iş(əmək) rejimi ilə bağlı)* | Ödənişli qeyri-iş günü *(xüsusi iş(əmək) rejimi ilə bağlı)* |
| 30 may | İstirahət günü | Ödənişli qeyri-iş günü *(xüsusi iş(əmək) rejimi ilə bağlı)* |

Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 may tarixli 177 nömrəli qərarının 2.2-ci bəndinə əsasən 2020-ci ilin istehsalat təqvimi dəyişmədiyi üçün may ayı üzrə aylıq iş vaxtı norması, eləcə də bu il üzrə orta aylıq iş vaxtı norması, həmçinin bundan irəli gələrək saatlıq (gündəlik) tarif (vəzifə) maaşları

# Mayın 24-dən 30-dək "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində qeyri-iş günüdür

Ramazan bayramı və 28 May - Respublika Günü ilə əlaqədar mayın 24-dən 30-dək "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində qeyri-iş günüdür.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, mayın 31-dən etibarən isə vətəndaşlar "ASAN xidmət" mobil tətbiqi, www.asan.gov.az saytı və 108 Çağrı Mərkəzi vasitəsilə əvvəlcədən onlayn növbə tutmaqla mərkəzlərə müraciət edə və müvafiq xidmətlərdən yararlana bilərlər.

"ASAN Kommunal" mərkəzlərində bazar günü qeyri-iş günüdür.

Qeyd edək ki, hazırda Azərbaycanda 18 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxtda olmaqla digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir və Tovuzdadır.

Həmçinin Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi fəaliyyətdədir.

# Bu il qazaxlı kümçülər 6 ton yaş barama istehsal etməyi nəzərdə tutmuşlar

*Əvvəli 1-ci səh.*

Dövlət proqramının icra olunması nəticəsində ölkəmizdə artıq ipəkçiliyin müasir infrastrukturu yaradılmış və yeni tut bağları salınmaqla bu sahədə möhkəm yem bazası yaradılmışdır.

Respublikamızın digər bölgələrində olduğu kimi, Qazaxda da dövlət başçısının baramaçılığın inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində son illər ardıcıl tədbirlər həyata keçirilir və bu sahədə uğurlu nəticələr əldə edilir. 2016-cı ildən geniş vüsət alan bu proses ildən-ilə genişləndirilərək yeni-yeni uğurlara imza atılır. Dövlətin sahənin inkişafına göstərdiyi diqqət və qayğıdan bəhrələnən rayon kümçüləri iqtisadi cəhətdən gəlirli olan baramaçılığın inkişafı üçün bütün imkanlardan maksimum istifadə etməyə çalışırlar.



Qeyd edək ki, artıq beşinci ildir ki, rayonda ipəkqurdu bəslənilir. Hər il uğurlu göstəricilərə nail olan rayon sakinləri bu il 6 ton yaş barama istehsalını nəzərdə tutmuşlar. Bu məqsədlə Alpout, Aşağı Salahlı, Aslanbəyli, Birinci Şıxlı, Çaylı, Cəfərli, Daş Salahlı, Dəmirçilər, Hüseynbəyli, Kəmərli, Kosalar, Orta Salahlı, Qaymaqlı, Xanlıqlar və Yuxarı Salahlı kəndlərində baramaçılıqla məşğul olan sakinlərə 150 qutu ipəkqurdu toxumu paylanmışdır.

Onu da demək lazımdır ki, Qazax Rayon İcra Hakimiyyəti baramaçılıqla məşğul olan sakinlərə böyük diqqət və qayğı göstərir. RİH əməkdaşları tez-tez kümçülərin yanında olaraq onların problemləri ilə maraqlanırlar. Elə bu günlərdə RİH başçısı Rəcəb Babaşov Qazax Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Həmid Pənahovla birlikdə ipəkqurdu toxumu paylanmış Kəmərli, Qaymaqlı, Aslanbəyli və Daş Salahlı kəndlərində olmuş və ipəkqurdu toxumunun saxlanma şəraiti və mövcud vəziyyətlə maraqlanmışlar. Kümçülərlə keçirilən görüş zamanı diqqətə çatdırılmışdır ki, ipəkqurdu toxumunu yetişdirmək üçün əvvəlcədən lazım olan bütün hazırlıq işləri görülmüş və otaqlar istiliklə təmin edilmişdir. İlk dəfə baramaçılıqla məşğul olan kümçülər bu işdə mütəxəssislərin məsləhətlərindən yararlandıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Astara rayonunun 3 kəndində müasir elektrik enerji sistemi qurulub

**Astara rayonunun 3 yaşayış məntəqəsi - Diqo, Dolu və Sekaşan kəndləri illər sonra elektrik enerjisi ilə təmin olunub. "Azərişıq" ASC adıçəkilən kəndlərdə işləri tam yekunlaşdırıb.**

Bu haqda məlumatı "Azərişıq" ASC Mətbuat xidmətinin rəisi Vaqif Mustafayev verib. "Cənab Prezident İlham Əliyev Astara rayonunun 3 yaşayış məntəqəsində - Diqo, Dolu və Sekaşan kəndlərində elektrik enerjisi təchizatının keyfiyyətinin yüksəldilməsi və dayanıqlılığını artırmaq məqsədilə müvafiq sərəncam imzalamışdır. Sərəncam əsasında "Azərişıq" ASC-nin başladığı işlər artıq yekunlaşıb. Dövlət başçısının xüsusi diqqət və qayğısı sayəsində hər 3 kənddə müasir elektrik enerji sistemi qurulub".

Kəndlərdə yeni komplekt transformator məntəqəsi yaradılıb, elektrik kabel xətləri çəkilib, həmçinin yeni dayaqlar quraşdırılıb. Keçilməz dağ yollarında texnika işləyə bilmədiyi üçün mal-materialın böyük hissəsini "Azərişıq" ASC-nin əməkdaşları əllə daşıyıb.

# Azərbaycanda koronavirusa daha 113 nəfər yoluxub, 55 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 113 yoluxma faktı qeydə alınıb, 55 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1963-cü və 1966-cı il təvəllüdlü iki nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 3631 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2253 nəfər müalicə olunaraq sağalıb, 43 nəfər vəfat edib, 1335 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 46 nəfərin vəziyyəti ağır, 64 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 245.609 test aparılıb.

# Azərbaycan yenə birinci oldu

## Bu dəfə Enerji Keçidi İndeksi üzrə

*Əvvəli 1-ci səh.*

Qeyd etmək vacibdir ki, qazınılan uğurlar uzun illər ölkənin enerji sektorunda bütün istiqamətlərdə aparılan dərin islahatların nəticəsidir. Dövlət başçısı bu yaxınlarda "Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılış mərasimindəki çıxışında ölkənin enerji təchizatında mükəmməl infrastrukturun yaradılmasının ardıcıl və kompleks şəkildə davam etdiyini bildirmiş, 90-cı illərdə nəinki bölgələrdə, hətta paytaxtın özündə gecə saatlarında televerilişlər qurtaran kimi işıqların qənaət üçün kəsildiyini xatırlamışdır. Həmin illər rayonlarda ən yaxşı halda sutka ərzində 2-4 saat elektrik enerjisi verilərdi. Hətta 2004-cü ildə də Azərbaycan özünü elektrik enerjisi ilə təmin edə bilmirdi. Məhz o vaxtdan regional elektrik stansiyalarının tikintisinə başlanılmış və son 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiya tikilmişdir. Prezident İlham Əliyev bu gün qazanılan uğurların təməlinin o vaxtdan qoyulduğunu belə izah edir: "Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı, nəinki 2000-ci illərin əvvəllərində".

Davos Forumunun yeni hesabatında 115 ölkənin enerji sistemləri 40 indikator üzrə əhatə edilmiş, 20 beynəlxalq və mötəbər məlumat təchizatçısının informasiyaları meyar kimi əsas götürülmüşdür.

İqtisadi inkişaf və artım, enerjiyə çıxış və təhlükəsizlik, ətraf mühitin dayanıqlılığı kimi 3 əsas istiqamətlərin hər biri üzrə enerji sənayesinin rəqabətqabiliyyətliliyi, ÜDM-ə töhfəsi, atmosferin çirklənməsi, adambaşına düşən karbon emissiyası, enerji təchizatının keyfiyyəti və sair kimi mühüm amillər qiymətləndirilmişdir. Enerji sisteminin performansı üzrə Azərbaycan 100 üzərindən 67 faizlik göstəriciyə nail olmaqla hesabatda ən yaxşı mövqeyə malik 30 ölkədən biri kimi qeyd olunur. ETI indeksinin enerji keçidinə hazırlıq sub-indeksi üzrə 6 əsas istiqamətdə qiymətləndirilmiş, enerji sektorunda kapital resurslarına çıxış, beynəlxalq öhdəliklərə sadiqlik, şəffaflıq və siyasi sabitlik, qanunların rolu və digər çoxsaylı alt-indikatorlardan təşkil olunmuşdur. Azərbaycan bu sub-indeksin mümkün 100 balından 49-nu qazanmışdır. Maraqlıdır ki, hesabata görə, neft idxal edən ölkələr neft ixrac edən ölkələri bir sıra parametrlər üzrə üstələmişdir. Resurs ixracatçılarının bu sub-indeks üzrə balı ümumilikdə aşağı olsa da, Azərbaycan bu baxımdan Yaxın Şərqin əsas neft ixrac edən ölkələrindən daha üstün mövqeyə malikdir və hətta MDB məkanında birincidir.

Hesabatda, həmçinin qeyd olunur ki, dünyada enerji sistemlərinə tələbatın son illər artması qlobal enerji tələbatına 40 faiz artmasına səbəb olmuşdur. Hazırkı dövrdə iqtisadi, maliyyə, tənzimləyici və infrastruktur baxımından dayanıqlılıq, sabitlik effektiv enerji sistemlərinə keçid üçün ilkin şərtlərdən hesab olunur. Yeni enerji sistemlərinə keçidin bir parametri olaraq, enerji təhlükəsizliyi həm də ona görə xüsusi əhəmiyyət kəsb edir ki, hazırda təbii qazın neftdən fərqli olaraq məhdud coğrafi məkanda paylanması səbəbindən dəyər zənciri də qeyri-adekvatdır. Beləliklə, yeni enerji sistemlərinə istiqamətlənmə qlobal səviyyədə xüsusi əhəmiyyət kəsb edir.

Bərpaolunan enerji növlərinə çəkilən xərclərin artması bu istiqamətdən əldə olunan enerjinin dəyərinin əhəmiyyətli dərəcədə artmasına gətirsə də, hesabatda dünya ölkələrinə ətraf mühitin davamlı sağlamlaşdırılması, bu istiqamətdə həyata keçirilən siyasətlərin tənzimlənməsi, texnologiya və maliyyə yatırımlarına ciddi fikir verilməsi tövsiyə olunur.

Onu da nəzərə almaq vacibdir ki, 2020-ci ildəki Dünya İqtisadi Forumunda müxtəlif regionlardan olan steykholderlər tərəfindən dayanıqlı iqtisadi inkişafa nail olmanın əhəmiyyəti xüsusi vurğulanmışdır. Azərbaycan iqtisadiyyatının əsas maliyyə mənbəyi karbohidrogen resurslarının istismarı ilə bağlı olsa da, yeni bərpaedilən enerji sistemlərinin, ətraf mühitin qorunmasının və bu kontekstdə dayanıqlı inkişafın ölkəmiz üçün prioritetliyi göstərilmişdir.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***


## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 14 aprel 2020-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına Yüksək təzyiqli şlanq başlıqlarının satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı **01 iyun 2020-ci il saat 18:00-a,** təkliflərin açılışı isə **02 iyun 2020-ci il saat 18:00-a** dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev. (agali.mirzeyev@azersu.az tel: +99412431-47-67(2246).

***Tender komissiyası***

## "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə *açıq tender elan edir*

LOT - 1: 25 ədəd 3 təkərli velosiped
LOT - 2: 5 ədəd avtonəqliyyat vasitəsi

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:**
**LOT - 1: 50 AZN**
**LOT - 2: 200 AZN**
**məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:**
**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**
**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən sonra ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **17 iyun 2020-ci il saat 16:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **25 iyun 2020-ci il saat 12:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **29 iyun 2020-ci il saat 12:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Oktay İsmayılov - Tender komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 107 ünvanında yerləşən inzibati binanın və həyətdəki köməkçi binaların təmiri işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**900 (doqquz yüz) manat (ƏDV daxil)**
iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 18 iyun 2020-ci il saat 17:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlardan arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **29 iyun 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **30 iyun 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

***Qeyd:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.

***Tender komissiyası***

## "Holcim (Azərbaycan)" ASC-nin səhmdarlarının nəzərinə

Dünyada sürətlə yayılan koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən müvafiq tədbirlər görülmüş, həyata keçirilən tədbirlər nəticəsində hazırda ölkədə pandemiya vəziyyəti nəzarət altına alınmış, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının azaldılmasına nail olunmuşdur.

COVID-19 infeksiyasının yayılmağa başladığı vaxtdan etibarən "Holcim (Azərbaycan)" ASC fəaliyyəti zamanı öz işçilərini, tərəfdaşlarını və üçüncü şəxsləri qorumaq üçün vacib tədbirlər görmüşdür.

Lakin nəzərə alınmalıdır ki, hazırda COVID-19 infeksiyası tam aradan qalxmamışdır və pandemiya şəraiti davam edir. Bu baxımdan kütləvi tədbirlərin keçirilməsi və insanların qruplar şəklində cəmləşməsi onların həyat və sağlamlığı üçün risklidir və virusun yayılmasına səbəb ola bilər.

"Holcim (Azərbaycan)" ASC-nin rəhbərliyi insanların həyat və sağlamlığının ən vacib məsələ olduğunu nəzərə alaraq virusun yayılmasına və təhlükəli fəsadlarla nəticələnməsinə şərait yaradılmaması üçün "Holcim (Azərbaycan)" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının 03.06.2020-ci il tarixə təyin edilmiş illik ümumi yığıncağının qeyri-müəyyən tarixə təxirə salınması barədə qərar qəbul etmişdir.

Ölkədə infeksiyanın yayılma vəziyyəti və məhdudiyyət tələbləri nəzərə alınmaqla, növbəti aylarda ümumi yığıncağın keçiriləcəyi tarix müəyyənləşdiriləcəkdir.

İllik ümumi yığıncağın keçiriləcəyi tarix barədə kütləvi informasiya vasitələrində əlavə məlumat veriləcəkdir.

***"Holcim (Azərbaycan)" ASC***

## "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci il üçün *kotirovka sorğusu elan edir*

1. Möhür və ştampların satın alınması
2. Liftlərə dövri texniki xidmətin satın alınması

Kotirovka sorğusu üzrə müraciətlər 02.06.2020-ci il saat 13:00-dək qəbul edilir.

Zərflərin açılma tarixi: 02.06.2020-ci il saat 14:00.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12.**
**Telefon: +99455 500-45-99; +99455 204-15-20.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərpoçt" MMC-nin "Azərbaycan" qəzetinin 17 aprel 2020-ci il tarixli 72 saylı nömrəsində elan edilmiş "Bağlama qutularının satın alınması"na dair açıq tender prosedurunda tender təklifi verən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbilə ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "Dəftərxana və təsərrüfat mallarının" kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 20 may 2020-ci il tarixli yekun protokoluna əsasən "Office Lines" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 20 may 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərpoçt" MMC-nin "Azərbaycan" qəzetinin 16.05.2020-ci il tarixli 95 saylı buraxılışında elan olunmuş "ATM-lərə təmir və proqram təminatı xidmətinin" satın alınması üçün keçirilməsi nəzərdə tutulan açıq tenderin şərtlər toplusuna düzəlişlə əlaqədar ilkin sənədlərin qəbulu 17.06.2020-ci il saat 16:00-dək, təklifinin və bank zəmanətinin təqdim olunması tarixi 25.06.2020-ci il saat 12:00-a kimi, zərflərin açılması tarixi isə 29.06.2020-ci il saat 12:00-a kimi uzadılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "Katriclərin doldurulması" xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 20 may 2020-ci il tarixli yekun protokoluna əsasən "Print Deluxe" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 20 may 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Kiçik və orta biznesin tədris və konsaltinq platforması üçün təlim videolarının hazırlanması xidməti"nin satın alınması ilə əlaqədar keçirilən elektron tender üzrə "UNİVERSİTAS-İNTERNATİONAL" MMC qalib elan edilmişdir.

Həmin təşkilatla 07 may 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Göyçaydan Mehdi Səlimzadə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini İlyas Əliyevə qardaşı

**VAQİF ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

ASC "Xalq" Bankının rəhbərliyi və kollektivi bankın İdarə Heyəti sədrinin birinci müavini Kamran Məcidova atası

**NAZİM ABDÜRƏHMAN OĞLU MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini İlyas Əliyevə qardaşı

**VAQİF ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## E L A N

### "M&M Milizer& Münch Baku LTD" ilə əlaqəsi olan bütün borclu və kreditorların nəzərinə

"M&M Milizer& Münch Baku LTD" MMC Bakı Kommersiya Məhkəməsinin 12 mart 2020-ci il tarixli e-2-2(113)-517/2020 saylı Qətnaməsi ilə müflis elan edilmişdir.

Göstərilən halla əlaqədar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.

***"M&M Milizer& Münch Baku LTD" MMC***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7526
Sifariş 1271
Qiyməti 40 qəpik